

KHAZAR REVIEW

XƏZƏR XƏBƏR

№ 356 Noyabr 2016



AYLIQ DƏRGİ
ISSN 2218-2772

khazar-review.khazar.org

AVRASİYA AKADEMİYASI

Avrasiya Akademiyasının ikinci rəsmi toplantısı və yeni üzvlərinin qəbul olunması mərasimi

PROQRAM

1-Cİ HİSSƏ
AVRASİYA AKADEMİYASININ QURULMASI VƏ İNKİŞAFI HAQQINDA FİLM

_ FASİLƏ _

2-Cİ HİSSƏ
AVRASİYA AKADEMİYASININ YENİ ÜZVLƏRİNİN QƏBULU

- **Cənab Robert Hosseln** (Fransa)
  AKTYOR, REJİSSOR, SSENARİST
- **Prof. Roald Sagdeev** (Rusiya)
  FİZİK
- **Türkan Xanım Şoray** (Türkiyə)
  KİNOAKTRİSA, REJİSSOR, SSENARİST

EURASIAN ACADEMY

Second Official Assembly and New Members' Induction Ceremony of Eurasian Academy


PROGRAM

PART 1
A FILM ABOUT THE ESTABLISHMENT AND DEVELOPMENT OF EURASIAN ACADEMY

_ BREAK _

PART 2
INDUCTION OF NEW MEMBERS INTO EURASIAN ACADEMY:

- **Mr. Robert Hossein** (France)
  ACTOR, DIRECTOR, SCRIPTWRITER
- **Prof. Roald Sagdeev** (Russia)
  PHYSICIST
- **Ms. Türkan Şoray** (Turkey)
  MOVIE ACTRESS, DIRECTOR, SCRIPTWRITER



Vaxt: 17 noyabr 2016, 16:00
Yer: Xəzər Universiteti, Neftçilər kampusu, Mərmər salon
Məhsəti küçəsi 41, Bakı, Azərbaycan

Date and time: November 17, 2016 at 16:00
Venue: Khazar University, Neftchilar Campus, Marble Hall
41 Mehseti St, Baku, Azerbaijan

İÇİNDƏKİLƏR

Avrasiya Akademiyasının ikinci rəsmi məclisi 4
İsaxan İsaxanlı. Göz yaşları-şəfqət damcıları 13
Robert Hossein və Türkan Şoray ilə görüş 14
Alik. Robert Hosseinin göz yaşları 18
Bədirxan Əhmədli. Hamlet İsaxanli-yenilikçi şair 20
Universitet xəbərləri 24
"Dünya" xəbərləri 29
Hamlet İsaxanlı. Sağ ol, əziz Mirnazim! 30
Türk dünyasının alimləri mükafatlandırıldılar 34
Aygün Əziz. 3500 tələbəsi olan 24 yaşlı konsultant 36
Bəstəkar Sərdar Fərəcov ilə üz-üzə 40
Rəis Rəsulzadənin 70 illik yubileyi 42
Əcnəbi tələbələr üçün oriyentasiya sessiyası 46
NDU xəbərləri 58
"ƏSA" teatrı premyerasını "Xəzər"də keçirdi 61
Potensial məktəb direktorları layihəsi davam edir 67
Vasko Pratolini. Vanda 70
World's Most Visited Tourist Attractions 74

1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
Camal Mustafayev
Əjdər Ağayev
Alla Axundova
Şəhin Fazil
Kıyas Aslan

İngilis dilində mətnlərin redaktoru:
Marta Lanni

Rəssam:
Mir Rafiq Əbdürrəhimov

Kompüter tərtibatçısı:
Gözəl Həbibova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsəti str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editors:
Alirza Balayev

Editorial members:
Jamal Mustafayev
Ajdar Aghayev
Alla Akhundova
Shahin Fazil
Kiyas Aslan

Editor of English Texts:
Martha Lanni

Design by:
Mir Rafig Abdurrahimov

Computer graphics:
Gozal Habibova

Photo:
Multimedia Centre

AVRASİYA AKADEMİYASI

EURASIAN ACADEMY



AVRASİYA AKADEMİYASININ İKİNCİ RƏSMİ MƏCLİSİ

Məclis Avrasiya Akademiyasına yeni üzv seçilmiş məşhur sənətçilər Robert Hosseinə (Fransa) və Türkan Şorayа (Türkiyə) akademiyanın diplomu və kubokunun təqdim olunmasına həsr edilmişdi.

Noyabrın 17-də Xəzər Universitetinin Mərmər salonunda Avrasiya Akademiyasının ikinci rəsmi məclisi keçirildi. Tədbirdə Avrasiya Akademiyasının iki təsisçi üzvü, universitetin rəhbərliyi və əməkdaşları, hökumət və Milli Məclis üzvləri, xarici ölkələrin Azərbaycandakı səfirləri, elm və sənət xadimləri, şirkət rəhbərləri, xarici qonaqlar və ictimaiyyət nümayəndələri iştirak edirdilər.

EURASIAN ACADEMY







Akademiyanın yeni seçilmiş üzvləri Robert Hossein və Türkan Şoray salona daxil olanda iştirakçılar onları ayaq üstə gurultulu alqışlarla qarşıladılar. Bildirildi ki, akademiyaya üzv seçilmiş professor Roald Sagdeev üzürlü səbəbdən məclisdə iştirak edə bilmir.

EURASIAN ACADEMY









İştirakçılara Avrasiya Akademiyasının iki üzvünün – professor Halil İnalcık və professor Ali Cavanın bu yaxınlarda vəfat etdikləri bildirildi və onların xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Aparıcılar Günay Səmədova və Eynur Mehdiyev universitet rəhbərliyi adından iştirakçıları salamladılar. Sonra Avrasiya Akademiyasının qurulma ideyası, yaranması və birinci toplantısı, Robert Hossein və Türkan Şoray haqqında filmlər nümayiş etdirildi.





Daha sonra Avrasiya Akademiyası diplomunun və "Avrasiya Əfsanəsi" kubokunun təqdim olunması mərasimi başlandı. Robert Hosseinə diplom və kuboku Avrasiya Akademiyasının qurucu üzvləri Arif Məlikov və Hamlet İsaxanlı, həmçinin Fransanın Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Aurelia Bouchez, Türkan Şoraya Arif Məlikov, Hamlet İsaxanlı və Türkiyənin Azərbaycan Respublikasındakı fövqəladə və səlahiyyətli səfiri Erkan Özoral təqdim etdilər. Qeyd olundu ki, Türkan Şoray Avrasiya Akademiyasına üzv seçilən və "Avrasiya Əfsanəsi"ni alan ilk qadındır.



AVRASİYA AKADEMİYASI

EURASIAN ACADEMY

EURASIAN ACADEMY

Aparıcılar bildirdilər ki, Avrasiya Akademiyasının qurucu üzvlərindən professor Lüfti Zadə və professor Məhmut Gazi Yaşargil ikinci rəsmi məclisdə iştirak etmək üçün Bakıya gələ bilmədiklərinə görə, yeni seçdikləri üzvlərə öz təbriklərini göndərmişlər.

Tədbirin fasiləsində Xəzər Universitetinin kamera orkestri qısa konsert proqrqmı ilə çıxış etdi.

Mərasim Xəzər Universiteti internet televiziyası ilə canlı yayımlanmış, Azərbaycan və Türkiyə mediasında geniş işıqlandırılmışdır







SECOND OFFICIAL ASSEMBLY OF EURASIAN ACADEMY

This assembly was dedicated to presenting membership certificates and Eurasian Legend awards to two newly elected members of Eurasian Academy, famous cinema figures Robert Hossein (France) and Türkan Şoray (Turkey).



On November 17, 2016, the second official assembly of Eurasian Academy was held in the Marble Hall of Khazar University. Participants in the event included two founding members of Eurasian Academy, administrators and faculty members of the university, Members of Parliament and other government bodies, ambassadors of other countries to Azerbaijan, people of science and arts, corporate executives, foreign guests, and members of the public.

AVRASİYA AKADEMİYASI

EURASIAN ACADEMY





When newly elected members Robert Hossein and Türkan Şoray entered the auditorium, the audience gave them a thunderous standing ovation. It was noted that Professor Roald Sagdeev, also elected for membership in Eurasian Academy, was unable to participate due to unforeseen circumstances.

An announcement was made that two members of Eurasian Academy, Professor Halil Inalcik and Professor Ali Javan, recently passed away. The audience remembered them with a moment of silence.

Hosts of the event Gunay Samadova and Eynur Mehdiyev greeted the participants on behalf of the university administration. Then films were shown reflecting the establishment and development of Eurasian Academy as well as the lives and works of new members Robert Hossein and Türkan Şoray.





Later the presentation ceremony of the Eurasian Academy certificate and Eurasian Legend award began. Eurasian Academy founding members Arif Melikov and Hamlet Isaxanli as well as the Extraordinary and Plenipotentiary Ambassador of France to the Azerbaijan Republic, Aurelia Bouchez, presented Robert Hossein's certificate and award. Then Arif Melikov, Hamlet Isaxanli, and the Extraordinary and Plenipotentiary Ambassador of Turkey to the Azerbaijan Republic, Erkan Özoral, presented Türkan Şoray's certificate and award. It was mentioned that Türkan Şoray is the first woman to be elected as a member of Eurasian Academy and receive the Eurasian Legend Award.







The hosts announced that Professor Lotfi Zade and Prof. Mahmut Gazi Yaşargil, founding members of Eurasian Academy, were unable to travel to Baku to participate in the Second Official Assembly but that they had sent their congratulations to the newly elected members.

During the event's intermission, the Khazar University Chamber Orchestra performed a brief concert program.

The ceremony was br oadcast live on Khazar University's internet television and was reported broadly by Azerbaijani and Turkish media.





GÖZ YAŞLARI-ŞƏFQƏT DAMCILARI



80-ci illərin əvvəlləri... Tələbə idim. Uşaqlarla birlikdə həmin illərdə tez-tez ekranlarda görünən "Anjelika ..." filmini müzakirə edirdik. Müzakirənin qızğın yerində uşaqlardan biri "nə qədər gözəl qızdır. Bircə dənə belə sevgilim olsa, heç qocalmaram", dedi. Mənim də bu oğlanla çox səmimi zarafatım var idi. Gülümsəyərək, "Sənin belə sevgilin olması üçün, sən özün gərək Jofrey olasan. Səndə də ki, Jofreylikdən əsər-əlamət yoxdur. Odur ki, Anjelikanı məuə burax" deyib, əlimdəki qələmlə sol üzümə bir şram-xətt çəkdim.

Bəli, yaddaşlarda, əsasən, məhz yuxarıda dediyim "Anjelika ..." filmində yaratdığı, sözün əsl mənasında, ölməz Peyrak obrazıyla qalıb, Azərbaycan əsilli məşhur fransız aktyoru Robert Hossein.

Noyabr ayının 11-də bir yerə toplaşıb Avrasiya Akademiyasına dəvət olunmuş qonaqların qarşılanması məsələsini müzakirə edirdik. Robert Hossein və Türkan Şorayı qarşılamaq üçün adamlar seçilməliydi. Böyük məmnuniyyətlə, Raziyyə İsayeva və Lyudmila Sotova ilə birlikdə Robert Hosseyni qarşılamağı öz öhdəmizə götürdük.

Robert Hossein öz xanımı ilə gələcəkdi. Bir dəstə güllə hava limanına yollandıq. Artıq təyyarə enmişdi, amma gözləmə zalında oturmağa səbrimiz çatmadığından 2-ci mərtəbəyə qalxaraq məşhur aktyoru ordan izləməyə başladıq.

Gəldilər. Gül dəstəsini Robertin xanımına uzatdım, məni qucaqlayıb öpdü, hər birimizlə çox səmimi çəkildə görüşüb qucaqlaşdılar, sanki çoxdanın tanışları idik. Əslində də belə idi. Axı gənclik illərimdən "tanıyırdım" onu. Gəncliyimin ideallarından biri ilə görüşmək zarafat deyildi, tələbəlik illərimizdə, yuxarıda söhbət açdığımız Jofrey, çoxları üçün, o cümlədən mənim üçün də əlçatmaz bir kişi idealı olmuşdu.

Nəhayət, noyabr ayının 17-də Xəzər universitetinin Mərmər zalında Avrasiya Akademiyasının rəsmi toplantısı başladı, Azərbaycan əsilli məşhur fransız aktyoru Robert Hossein və Türk kinosunun canlı əfsanəsi Türkan Şoray Akademiyaya üzv seçildilər.

Qısa müddət ərzində Robert mənə o qədər doğmalaşmışdı ki, hiss edirdim ki, özümdən asılı olmayaraq hər yerdə onu axtarıram, ona yaxın olmağa çalışıram, sanki onun arxasınca gəzirəm. Toplantıda da onun yanındakı stolda oturmuş, gözlərimi demək olar ki, ondan ayırmırdım. Üzündəki hər bir mimika, onun baş verənlərə münasibətini əks etdirirdi. Baş verənlər isə onu o qədər təsirləndirmişdi ki, canlandırdığı çoxsaylı obrazları ilə insanların qəlbinə hakim kəsilən bu böyük sənətkar indi öz göz yaşlarına hakim ola bilmədi. Yanında oturan xanımı da ona baxdıqca doluxsunur, öz baxışları ilə ömür yoldaşına təsəlli verməyə çalışırdı. Mənə elə gəlir ki, böyük aktyorun göz yaşları məclisdə iştirak edənlərdən heç kimin diqqətindən yayınmadı, Hamlet İsaxanlı hətta ona yaxınlaşaraq bu böyük şəxsiyyətlə həmhəyacan olduğunu bildirdi.

Göz yaşları... İnsan qəlbinin təmizliyinin ən səmimi göstəricisi, insanın içini saflaşdıran, duruldan şəfqət damcıları, "kişi ağlamaz, nə olursa olsun dözməli, özünü saxlamalıdır" deyən çoxlarına insanlığın, hətta kişiliyin ən səmimi cavabı. Bəli, bir şairin dediyi kimi: "Kişiyə ağlamaq yaraşmasa da, bəzən ağlamamaq mənə ar gəlir"(*Hamlet İsaxanlının bir rübaisindən*-red.).

Robert Hossein kimi böyük şəxsiyyətlərin, milyonlar tərəfindən sevilənlərin göz yaşını saxlaya bilməməsi isə daha dərin məna kəsb edir - adi insanlar üçün əlçatmazlıq zirvəsinə yüksəlmişlərin də əfsanə deyil, elə bu adi insanlar qədər sadə, canlı varlıq olduğunun bir göstəricisidir.

Robert Hossein getdi... Yuxumda bir tarix gördüm. Röyam o qədər şirin, o qədər doğma idi ki...

İsaxan İsaxanlı



ROBERT HOSSEİN və TÜRKAN ŞORAY İLƏ GÖRÜŞ





Noyabrın 18-də Xəzər Universitetinin Mərkəz kampusunun "Dünya" konsert salonunda Robert Hossein və Türkan Şoray ilə görüş keçirildi. Görüşdən əvvəl qonaqlarla çay süfrəsi ətrafında səmimi söhbət oldu.

Görüşdə Xəzər Universitetinin tələbələri, "Dünya" məktəbinin şagirdləri və media qurumlarının nümayəndələri iştirak edirdilər.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, eləcə də Avrasiya Akademiyasının beş təsisçi üzvündən biri, professor Hamlet İsaxanlı tədbiri açaraq, Robert Hossein və Türkan Şorayın həyat və fəaliyyətləri, həmçinin Avrasiya Akademiyasının fəaliyyəti haqqında danışdı.









Görüşün birinci hissəsində Robert Hossein və Türkan Şoray ürək sözlərini dedilər, müsahibə verdilər, onlara hədiyyə təqdim olundu.

İkinci hissədə isə Xəzər Universiteti və "Dünya" məktəbinin musiqi kollektivlərinin hazırladığı konsert verildi. Sonra isə tələbələr və şagirdlərin iştirakı ilə ingilis dramaturqu Uiliyam Şekspirin həyat və yaradıcılığına həsr olunmuş tamaşa göstərildi.

Robert Hosseinin həyat yoldaşı Michele Patou iştirakçılara və təşkilatçılara xüsusi təşəkkür etdi.



MEETING WITH ROBERT HOSSEIN AND TÜRKAN ŞORAY

On November 18, a meeting was held for students with Robert Hossein and Türkan Şoray in the World Concert Hall of Khazar University's downtown campus. Before the event, the guests had a conversation with the university administration over tea.

Participants included students of Khazar University and Dunya School as well as media representatives. Opening the event, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees as well as one of the five founding members of Eurasian Academy, gave a speech about the lives and activities of the two honored guests as well as about the activities of Eurasian Academy.

During the first part of the event, Robert Hossein and Türkan Şoray gave interviews and brief speeches. Biographic films were shown. The guests were given gifts. During the second half of the event, Khazar University and Dunya School students performed a concert program. Then they gave a performance of scenes about William Shakespeare's life and works.

Robert Hossein's wife, Michele Patou, especially thanked the event participants and organizers.



ROBERT HOSSEİNİN GÖZ YAŞLARI



Rəsmi tədbirdən qeyri rəsmi - yadımda qalanlar

Dünən Xəzər Universitetində, professor Hamlet İsaxanlının həmtəsisçisi olduğu, Avrasiya Akademiyasının 2-ci rəsmi toplantısı oldu. Akademiyanın iki yeni üzvü də qonaqlar arasında idi: Məşhur aktyor və rejissor Robert Hossein və türk filmlərində kişilərin həmişə əlçatmaz bir qadın kimi izlədiyi Türkan Şoray.

Tədbir, yeni üzvlər haqqında hazırlanmış filmlərlə başladı. Bilməyənlər üçün, deyim ki, fransalı aktyor Robert Hossein Azərbaycan əsillidir. Atası Səmərqənddəndir. Filmlərdən gördüyümü bu gümrah, yaraşıqlı oğlan, indi, gözlərində illərin yorğunluğu olan bir qocaya çevrilib. Sanki yaratdığı obrazların hamısını öz taleyi kimi yaşayıb. Hossein tamaşaçıların yaddaşında ən çox 60-cı illərdə "Anjelika" seriyasından olan filmlərdə canlandırdığı qraf de Peyrak obrazı ilə qalıb. Bu obraz təkcə tamaşaçıda yox, həm də aktyorda dərin iz buraxıb. Müsahibələrinin birində Hossein qeyd edib ki, qəbri üstündə Peyrak obrazının əks olunmasını istəyir.

Tədbirdə Robert Hosseinin filmlərindən parçalar nümayiş olunarkən, üzümü çevirib aktyora baxdım. Hosseinin gözlərindən yaş axırdı. Qoca aktyor böyük ekranda öz gəncliyini izləyərək ağlayırdı... Bu vaxt Hamlet İsaxanlı yan masadan ayağa qalxaraq Robertə yaxınlaşdı, əlini çiyninə qoydu və nə isə dedi. Gəncliyini geridə qoymuş bu iki böyük adam: Biri ağlayır, digəri təsəlli verirdi... Çox kədərli mənzərə idi.

Bəlkə bu qədər kövrək və hissiyyatlı olmağından, bəlkə də Azərbaycan əsilli olmağından, Azərbaycanı çox sevməyindən, Robert Hosseinə qarşı qəribə bir doğmalıq hiss etdim.

Robert Hossein Azərbaycana öz xanımı ilə gəlmişdi. Çox gözəl qadın idi. Onun, Hosseinə həddən ziyadə diqqət ayırması nəzərimdən yayınmadı. Tez-tez aktyorun saçını, paltarını, yaxasını düzəldir, nə isə soruşur, fikrini ondan ayırmırdı. O anda öz-özümə düşündüm ki, əslində bütün yaradıcı adamların bu cür xanımı olmalıdır, xüsusən də Robert kimi uşaqqəlbli bir adamın...

Sonra Türkan Şoray haqqında film başladı. Yaratdığı obrazlardan, çəkildiyi kinolardan nümunələr nümayiş olundu. Tədbirə hopmuş nostalgiya hissi daha da gücləndi. Türkan xanımın yanında Türkiyənin Azərbaycandakı səfiri Erkan Özoral əyləşmişdi. Gənc səfir, aktrisanın çəkildiyi filmləri izlədikcə, gözləri doldu. Tədbir iştirakçıları, film boyunca, xısın-pısın danışır, pıçıldaşır, təəccüb dolu nələrsə deyirdilər. Ara-sıra pıçıltılar eşidilirdi: "Necə gözəl idi", "İndi yaman qocalıb", "Amma yenə də gözəldir"... Ekranda isə filmlərindən hansındansa bir parça nümayiş olunurdu. Gənc Şoray oxuyurdu:

Boş yere bekleme geçen günleri
Böyledir ne yazık ki ezelden beri
Kimi benim gibi sever gönülden
Kimi senin gibi el olur gider...

Alik
http://kulis.lent.az/news/16558
18.11. 2016



HAMLET İSAXANLI İSVEÇRƏLİ NÜMAYƏNDƏ HEYƏTİNİ QƏBUL ETDİ

Noyabrın 2-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı İsveçrə Dövlət Əməkdaşlıq və İnkişaf Katibliyinin proqram meneceri Reto Veyermenin (*Reto Weyermann*) başçılıq etdiyi nümayəndə heyəti ilə görüş keçirdi.

Görüşdə Xəzər Universitetində fəaliyyət göstərən Avrasiya Bilik Mərkəzinin cari fəaliyyəti, habelə, mərkəzin idarəçiliyi ilə növbəti ildə xüsusi sertifikat proqramına start verilməsi məsələləri müzakirə edildi.

AZƏRTAC görüş haqqında xəbər yaymışdır:

http://azertag.az/xeber/Xezer_Universitetinde_xususi_sertifikat_proqramina_baslanilacaq-1007697.

HAMLET ISAXANLI HOSTS SWISS ORGANIZATION REPRESENTATIVES

On November 2, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, hosted Reto Weyermann, Program Manager of the State Secretariat for Economic Affairs, SECO, Switzerland, and his delegation.

During the meeting, the guests learned about the Eurasia Extractive Industries Knowledge Hub affiliated with Khazar University, including its current activities. They also discussed the issue of starting up a special certificate program through the Center next year.



HAMLET İSAXANLI - YENİLİKÇİ ŞAİR

2016-cı ildə Azərbaycan Milli Elmlər Akademiyasının Nizami adına Ədəbiyyat İnstitutu tərəfindən iki cilddə "Müstəqillik dövrü Azərbaycan ədəbiyyatı" kitabı dərc olunub. Kitabda "Portret oçerklər" sırasında Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının yaradıcılığı haqqında "Hamlet İsaxanlı – yenilikçi şair" adlı məqalə yer almışdır (səh.634-642). Məqalənin müəllifi filologiya üzrə elmlər doktoru professor Bədirxan Əhmədlidir. Məqaləni oxucularımıza təqdim edirik.

Hamlet İsaxanlı 1948-ci il martın 1-də Gürcüstanın Qarayazı rayonunun Kosalı kəndində anadan olub. Azərbaycan Dövlət Universitetinin (indiki BDU-nun) mexanika-riyaziyyat fakültəsini fərqlənmə diplomu ilə bitirib. 1973-cü ildə M.V.Lomonosov adına Moskva Dövlət Universiteti mexanika-riyaziyyat fakültəsinin aspiranturasını bitirərək "Operator dəstələrin spektral nəzəriyyəsinin bəzi məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək fizika-riyaziyyat elmləri namizədi alimlik dərəcəsi alıb. Moskva Dövlət Universiteti, SSRİ Elmlər Akademiyasının Riyaziyyat İnstitutunda, Azərbaycan Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunda, Azərbaycan Dövlət Universitetində çalışıb (1973-1983). Sonra Azərbaycan Dövlət Neft və Kimya İnstitutunda və Leninqrad Maliyyə və İqtisad İnstitutunda (Bakı filialında) uyğun olaraq professor və kafedra müdiri kimi fəaliyyət göstərib. SSRİ, ABŞ, Böyük Britaniya, Kanada və Almaniya kimi ölkələrin nüfuzlu elmi jurnal və məcmuələrində elmi-tədqiqat əsərləri dərc olunub. 1983-cü ildə Moskvada Sovet Elmlər Akademiyası Riyaziyyat İnstitutunda "Çoxparametrli spektral nəzəriyyənin bəzi məsələləri" mövzusunda dissertasiya işini müdafiə edərək fizika-riyaziyyat elmləri doktoru alimlik dərəcəsi alıb, bir qədər sonra isə Sovet Ali Attestasiya Komitəsi tərəfindən professor adına layiq görülüb. Azərbaycanın ilk özəl universitetinin qurucu rektoru olaraq tanınır. 1991-ci ildə yaratdığı Xəzər Universiteti bu gün də Azərbaycan təhsil sisteminin önündə gedən təhsil məkanıdır. 2012-ci ildə Hamlet İsaxanlı digər dörd görkəmli elm və sənət adamı (Halil İnalcık-Türkiyə, Lütfizadə-ABŞ, Mahmud Gazi Yaşargil- ABŞ, Arif Məlikov-Azərbaycan) ilə birlikdə Avrasiya Akademiyasını təsis edib. Bu Akademiya riyaziyyat və təbiət elmləri, həyat haqqında elmlər, mühəndislik və texnologiya, sosial və humanitar elmlər, musiqi, ədəbiyyat və incəsənət sahələrini əhatə etməklə, öz qarşısına görkəmli insanları obyektiv surətdə şərəfləndirmək məqsədi qoymuşdur. Hamlet İsaxanlı elm və təhsil təşkilatçısı kimi tanınmaqla yanaşı, ədəbiyyat, mədəniyyət və incəsənətin inkişafı, siyasi mədəniyyətin və media mədəniyyətinin, idmanın inkişafı kimi sahələrə də öz dəyərli töhfələrini vermiş və verməkdədir.

Hamlet İsaxanlı imzası ilə elm, təhsil, humanitar və sosial elmlər üzrə məqalə və kitablar, şeir kitabları, bədii-publisistik əsərlər nəşr etdirir. Hamlet İsaxanlı Azərbaycanda və onun hüdudlarından kənarda təkcə alim və elm-təhsil təşkilatçısı kimi deyil, şair kimi də çox tanınır. Uşaq və gənclik illərindən şeir yazmış, lakin onları uzun müddət çap etdirməmişdir. Poetik əsərlərini 2000-ci ildən dərc etdirməyə başlamışdır. "Təzadlar" (2001), "Bu da bir həyatdır" (2004), "Dördlüklər" (2007), "Ziyarət" (2009) və s. kitabları

işıq üzü görmüşdür. Onun şeirləri rus, ingilis, çin, gürcü, eston, türk və digər dillərə tərcümə edilmişdir.

Ədəbi prosesə müstəqillik dövründə daxil olan H.İsaxanlının poetik yaradıcılığı hiss ilə fikrin, ağıl ilə bədii təxəyyülün qovuşuğundan yaranmışdır. Olsun ki, bu müəllifin elm adamı, riyaziyyatçı olmasından irəli gəlmişdir. Lakin onun gənclik illərindən şeirlər yazdığını nəzərə almış olsaq, onda bu iki amilin şairin təbiətindən doğduğunu aydın görmək olar. Onun poeziyası ilk baxışdan sadəliyi ilə fərqlənir; belə ki, həm forma, həm də məzmun baxımından ənənəvilik bu yaradıcılıqda əsas yer tutur. Şeirlərində heca, hecalı sərbəst, ritmik sərbəst, eləcə də digər vəznlər qovuşuq və qarışıq şəkildə istifadə olunur. Ancaq ənənəvi formada yeni bədii təsvir və ifadə vasitələrindən, poetik fikrin yeni formada istifadə zənginliyi şairin orijinal bir yaradıcılıq yolu keçdiyini şərtləndirmişdir.

H.İsaxanlının şeirlərində ideya qaranlıq bir kölgə altında, yaxud qatı duman içində gizlədilmir, açıq tendensiya ilə deyildiyindən şairin məqsədi də oxucuya tez çatır. Məzmun etibarilə də bu şeirlərdə yeni poetik fikir formalaşdırılır; burada sevincdən, qəmdən yaranan şeirlərlə yanaşı, sadəcə hər hansı əhvali-ruhiyyəni əks etdirən ovqat düşüncəsi də aparıcı olur. Az sözlərlə mənalı fikir ifadə etmək Hamlet İsaxanlı poeziyasının səciyyəvi cəhətlərindəndir.

Həyat və ömür haqqında böyük həcmli şeirlər çoxdur; H.İsaxanlı isə cəmi üç misrada həyatın fəlsəfəsini çatdırır:

Ömür var, mənası - ye, iç, yat.
Nə dərin həyəcan, nə fəryad.
Sevdasız bir həyat - nə həyat?!

Bu poetik nəticədən sonra isə şair dostlara üz tutaraq "əl-ələ tutmaq", "sözdən əmələ keçmək", "arzuları məhv olmağa" qoymamaq və "könüllərin coşub nəğmə deməsi"ni istəyir. Ancaq bütün bunlar patetik səslənmir, şairin dünyaya baxışının yeni bədii formulu təsiri bağışlayır. Bu şeirlərin hər birinin əsasında fikir durur, məhz bu fikir şeirinin strukturunu təşkil edir; lakin bu surroqat şəkildə deyil, obrazlı şəkildə ifadə olunur. Şairin əksər şeirlərində elmi mühakimə, fəlsəfi çalarlarla bədii təxəyyül qoşa qanad kimi çıxış edir. Onun şeirlərində fikrin, məntiqi mühakimənin olması yeni poetik mətnlərin yaranmasına nədən olur. Bu mətnlər yeni olduğu kimi, safdır, bulaq suyu kimi təmizdir, lüzumsuz təfərrüatdan, gərəksiz ricətlərdən uzaqdır. Bu mənada şairin şeirləri müəyyən ölçü hissinə malikdir; heç zaman əndazəni aşmır, fikri uzatmır, parıltıdan, dəbdəbədən qaçır. Bu da oxucunun məhəbbətini, rəğbətini qazanmaq üçün bəs edir:

Əyildim otlara diz üstə çökdüm,
Güllərin ətrini içimə çəkdüm.
Günəş də telini çəmənə sərdi
Daha nə möcüzə istəyəcəkdim.
Yeridim meşələr, dağlar arası
Meh əsdi, yarpaqlar səs-səsə verdi.
Bəlkə məlhəm tapa könül yarası
Üşümüş qəlbimdə bir od közərdi.

Bir şair kimi Hamlet İsaxanlı poeziyasının səciyyəvi cəhətləri çoxdur; ancaq onlardan ən başlıcası şairin şeirlərinin səmimiliyidir. Şairin son on beş ilin ədəbi prosesində özünü təsdiq etməsi və şeirlərinin bu qədər geniş əks-səda doğurmasını şərtləndirən amillər məhz bununla bağlıdır. H.İsaxanlının bədii axtarışları yeni, orijinal poetik tapıntılarla yaradıcılıq kredosunu müəyyən etmişdir. Hər bir şair üçün bu əsas şərtlərdən biridir. H.İsaxanlı da müxtəlif formalı, janrlı şeirlərdə bədii axtarışlara, poetik fikrin orijinallığına xüsusi fikir verir. Ən kiçik şeirində belə şair həyat, dünya ilə bağlı duyğularını, poetik fikirlərini orijinallıqla ifadə etməyə çalışır. Poeziyada deyilməmiş fikir yoxdur, ancaq onu yeni formada, orijinal ifadə tərzi və metaforlarla təsvir etmək dünyanın yenidən dərk olunmasına şərait yaradır. Fəlsəfə elmləri doktoru Camal Mustafayev yazır: "Hamlet İsaxanlı bizim poeziya ənənələrimizə yeni yolla yanaşır. Bu yenilik özünü Hamlet İsaxanlı yaradıcılığında söz və canlı mənanın dialektik vəhdətində göstərir. Həqiqət budur ki, yaradıcı məna daşımadan heç bir poetik söz uzun müddət yaşamaq haqqı qazana bilmir. Hamlet İsaxanlı poeziyası, sadəcə, bədii zövqü oxşamaqla məhdudlaşmır. Onda estetiklik canlı fikirlə vəhdətdə poetik əksini tapır. Hamlet İsaxanlının şeirlərini oxucular özlərinin mənəvi-estetik maraqlarına, zövqlərinə uyğun kəşf edəcəklər".

Hamlet İsaxanlının yaradıcılıq sirri də məhz bundadır; onun yaradıcılığında məhəbbətdən başlamış dünya hadisələrinə qədər mövzular, yeni semantikada, üslubda təqdim olunur. Mövzusundan asılı olmayaraq bütün şeirlərində dünyanın, həyatın dərki başlıca yer tutur. Həyatın filosofcasına dərki H.İsaxanlı poeziyasının səciyyəvi xüsusiyyətidir; burada həyat da var, həyatın təzadları və ziddiyyətləri də var, bir də bunlardan çıxan məna var. "Son xatirələr", "Məndən sonra", "Sənsizlik", "Dəniz sahilində görüş", "Ya sən, ya heç", "Nə olardı" və s. şeirlərində həyata, dünyaya yeni baxış bucağından baxır. Bu cəhətdən "Son xatirələr" şeiri maraq doğurur. Xatirə, ölümdən sonrakı həyat həmişə maraq doğurur, H.İsaxanlının şeirində isə bu həyatın fəlsəfi dərki özünəməxsus şəkildə verilir. Həyat şeirdə yeni biçimdə və yeni metafora ilə anladılır:

Getdiyim yol qırılacaq
Bir gün tamam bitəcək.
İçimdəki payız rəngli xatirələr
Yarpaq-yarpaq budağından üzüləcək,
Töküləcək, itəcək
Elə o gün ömrüm sona yetəcək

Səsim bəzi qulaqlarda qalacaq
Kimlərsə şeirimdən ilham alacaq
Sözümü kimlərsə yada salacaq –
Adamın allahı var
Yada salmaqdan bezmir insanlar.

Həyat mürəkkəbdir, mürəkkəb olduğu qədər də ziddiyyətlidir; lakin bu həyatdan bizdən sonra qalacaq xatirənin özünün ömrü necə olacaq? O nə zaman bitəcək? Sonuncu bənddə şairin ömürlə bağlı fəlsəfi qənaətləri ümumiləşdirilir, tam yeni intonasiyada təqdim edilir:

Olacaq, çox işlər olacaq...
Dünya yeni insanlarla dolacaq
Mənə bağlı xatirələr
Seyrələcək, saralacaq, solacaq,
Yarpaq-yarpaq budaqlardan üzüləcək,
Töküləcək, itəcək-
Xatirə də bir həyatdır, bir ömürdür
Bir gün o da bitəcək.

Hamlet İsaxanlının poeziyasını səciyyələndirən başqa bir xüsusiyyət onun şeirlərinin yeni düşüncə tərzi və formalardan istifadə etməsindədir. O, hecada yazdığı kimi, sərbəst və ya ritmik sərbəstdə də yazır. Şairin heç bir ənənə cığırına sığışmayan, azad ifadə formasıyla seçilən poeziya nümunələri də var ki, burada heca ilə sərbəstin qovuşuğu aydın hiss olunur. Bu cür şeirlərində şair yeni formalar yaratmış olur. Sərbəst şeirin özündə belə daxili bölgülərdə qafiyələrlə şeirin intonasiyasını təmin edir. "Qarartıl işıq", "Dəniz sahilində görüş", "Hər sevən yetməz ki kama", "Bu nə sevgi, nə fəlsəfə", "Ya sən, ya heç" və s. şeirlərinin hər birinin özünəməxsus daxili bölgüsü və bu bölgüdən yaranan orijinal ritmi var:

Saçında meh gəzir, ayağında şeh
Xəyalım sevdalı, əməlim saleh
İçdiyim su zəm-zəm,
şair ruhum dəm...
Duyan varmı görən?
Varsa-xeyli kəm...
Düşünürəm hərdən: meydanda təkəm
Mənə soyuqdur
Ölmüşəm, ortadan götürən yoxdur

H.İsaxanlının şeirləri müxtəlif mövzuludur; burada məhəbbət, dünya, həyat, insan mövzusu şairin poetik yaradıcılığının əsasını təşkil edir. "Səni sevdim çox sadəcə" şeirində real dünyəvi sevginin sadə gözəlliyi, "Səs" şeirində isə gözəlliyi könüllərin vəhdətini yaradan ecazkar qüvvə

kimi anladır. "Ölümə nə var ki" şeirinin leytmotivini dünya, yaşamaq uğrunda mübarizə zərurəti təşkil edir və yaşamağın ölməyə gedən yol olduğu vurğulanır. "İstanbul, Boğaziçi" şeiri isə duyğusal bir şeirdir; burada insanın təsəvvüründə ani olan, amma unudulmaz etüdlər canlandırılır və dünyanın bütün ayrılıqlarını xatırladılır.

"Səni sevdim çox sadəcə" şeirində vətən məhəbbəti əks etdirilir. Təsadüfi deyil ki, şair Zəlimxan Yaqub bu şeiri Səməd Vurğunun "El bilir ki, sən mənimsən" sözləri kimi sadə və gözəl olduğuna diqqət çəkir. Şairin «Şər və xeyir», «Ömrün harasındayıq?», «İşıq və qaranlıq», «Ot kökü üstə bitər» kimi şeirləri oxucuya yüksək mənəviyyat aşılayır. "Dənizdə bir quş" şeirində mənəvi dünyasındakı tələtümlərin mahiyyətini axıracan dərk etmək, duymaq üçün dənizdə ağlayan quşu Vətəndə, ya qürbətdə, uzaqda, ya yaxında olmağından asılı olmayaraq, arzularını göyərdə bilməyən insan kimi təsəvvür edir.

H.İsaxanlı formasından asılı olmayaraq bütün şeirlərində bir filosof kimi çıxış edir; dünya, cəmiyyət, təbiət haqqında poetik fikirlər onun şeirlərinə səpələnmiş haldadır. Hər bir şeirinin sonunda sanki fəlsəfi ümumiləşdirmələr aparır. Onun heç kimə bənzəməyən formalarda yazdığı rübailər, bayatılar, yarpaqlar, məcazlarında fəlsəfi mahiyyət həm də formanın mahiyyətindən gəlir. Şair burada heç kimi təkrarlamamış, poeziyanın estetik mahiyyətini ruhuna hopdurmuşdur. Rübai və bayatı forması ənənədən gəlmədir, ancaq bu ənənəvi formada şair poeziyamıza tamamilə yeni ifadə tərzi gətirmişdir. Şairin dördlükləri fəlsəfi təzadlarla zənginliyi ilə seçilir.

Şairin dördlüklərində hadisə və predmetlərin özünəməxsus əlaqə formaları poetik cəhətdən təhlil edilir və fəlsəfi nəticələrə varılır. Rübailərdə həyat və dünya hadisələri yeni rakursda təsvir edilir:

Başlanğıc olubsa, söylə, o nədir?
Öncə kainatdır, ya düşüncədir?
Məhdud ağlımızla əbədiyyəti
Dərk edə bilmirik, iş çox incədir.

Yaxud:

Dərin bir ahənglə dövr edir aləm
Mən bu dərinlikdən hali deyiləm
Yığın-yığın kitab gözləyir məni
Ömür yetməyəcək, budur dərd-ələm

Bu cür rübailər çağdaş poeziyanı yalnız forma cəhətdən deyil, həm də məzmun etibarilə zənginləşdirir. Şair hadisələrə yalnız bir müstəvidən baxmır, damla ilə dəryanın vəhdətindən çıxış edir, gecə-gündüz, yaxşı-pis, dərinlik-səth kimi təzadlar şairin həyat haqqında düşüncələrini poetik təfəkkürdən keçirir. Şairin rübailərində analitik təfəkkür həyatı, dünyanı an, məqam kontekstində deyil, bir dəfə yaşanmış ömrün poetik qənaətləri kimi ortaya çıxır.

H.İsaxanlının istər rübailərində, istərsə də bayatılarında insan, dünya, həyat xeyir-şər müstəvisində təhlil edilir. Ənənəvi bayatı formasında şair yeni dünya insanını düşündürən problemləri son dərəcə lakonik şəkildə təsvir edir. Şair ətrafımızda, dünyamızda yer tutan şərin əleyhinədir, onu yaxına buraxmamağı bildirir:

Ətrafı tutarsa şər
Ürəyi boğar kədər
Yanıb-yaxılar ürək
Yana bildiyi qədər.

H.İsaxanlının özünəməxsus bu formalardan yarpaqlar forma-məzmun vəhdəti baxımından çağdaş poeziyamızı zənginləşdirir. Xüsusi qafiyə və heca məhdudiyyəti olmayan yeddilik, onbirlik və onbeşliklərdən ibarət yarpaqlarda təzadlar və kontrastlar poetik fikrin çatdırılmasında yeni forma kimi diqqəti cəlb edir. Bu formanın şairə həm hecalarda, həm də qafiyələnmədə verdiyi sərbəstlik şairin dünyaduyumunu poetik şəkildə əks etdirməyə imkan verir:

Ağaclar boy atıb çiyin-çiyinə
Göydə quşlar, yerdə sular oynayır
Duyğular coşduqca qabarır sinə
Sinədən nə varsa, de gəlsin, şair!

Ümumiyyətlə, H.İsaxanlının poetik yaradıcılığında forma məhdudiyyəti yoxdur; o, eyni dərəcədə xalq şeiri üslubunda, qəzəl janrında da yazır və özünü ifadə edə bilir. Aşıqsayağı, xalq mahnısı üslubunda şeirlərinin olması da bunu deməyə əsas verir. "Qədər bunu?" qəzəli bu cəhətdən diqqəti cəlb edir. Əslində qəzəllərin adı şeirin birinci misrası ilə adlanmalıdır. Lakin şair ona xüsusi ad vermişdir. Buna baxmayaraq qəzəl forma-məzmun vəhdəti baxımından yeni dövrdə janrın imkanlarını ortaya qoymuşdur:

Səni itirmək qorxusu məni məhv edir, gözəlim
"Candan şirin nə var?!" deyən, vallah, səhv edir, gözəlim.
Can şirindir o halda ki, candan şirin cananı var
Könül o cananı istər, can da o cana can atar...

Hamlet İsaxanlı yaradıcılığında poema janrı da müəyyən yer tutur; çağdaş poeziyada bu janr əvvəlki dövrlərə nisbətən bir qədər geri çəkilsə də, yeni formaları yaranmaqdadır. Bu mənada şairin "Ziyarət" poeması xüsusi yer tutur. Ayrı-ayrı şeirlərdən ("Şükür gəldik kəndimizə", "Dilimiz gödək olmasın", "O gözəllik qocalmışdı", "Yaşadığım mənə yetər", "Könül səsi" və s.) ibarət olan poemada şair doğulduğu yerin, həyati, olub-keçmiş, lakin əbədi iz salan hadisələrin etnoqrafik təsvirini verir. Tənqidçi V.Yusiflinin yazdığı kimi: "H.İsaxanlı həm lirik, həm də epik lövhələrlə kəndin artıq yaşa dolmuş, gəncliyi illərin o tayında qalmış həmkəndliləriylə söhbətə başlayır- bu söhbətin məğzi, mahiyyəti həyat, ölüm, yaddan çıxmayan insanlar haqqındadır. Lirik qəhrəmanın özü də yaşa dolub. Amma kəndlə, təbiətlə bağlı hisslər, duyğular, müqəddəs sandığı od-ocaq, dağlar, çöllər, çəmənlər, ana nəfəsi, ata öyüdü, halal çörək, bulaq, dərə... bax, bunların qocalmaq qorxusu yoxdur".

Poema xatirə-retrospeksiya formasında qələmə alınmışdır. Uzun müddətdir ki, anamı ziyarət etməyən oğul nəhayət "doğulduğu", "boy atdığı" kəndə getmişdir. Yaddaş poemanın leytmotivinə çevrilir. Ana obrazı əsərdə simvollaşır, yalnız konkret bir kəsi dünyaya gətirən qadını deyil, həm də həmin adamın dünyaya gəldiyi ocağı, yurdu, eli-obanı təmsil edir və vətən məfhumu ilə eyniləşir. Uzun müddətdir oğlu ilə görüşməyən Ana bu görüşü qismət hesab edir. Bununla şair insanın öz kökündən ayrılmadığını, daim onunla nəfəs aldığını, yaddaşında kök saldığını göstərmək istəmişdir. O, haraya getsə, harada yaşasa da, yaddaş da onunla bərabər yaşayır və nəhayət onu yenidən geriyə qaytarır. Şair konkret hadisələri təsvir etməklə yanaşı, lirik kənaraçıxmalarda insan - dünya - zaman probleminə də nəzər salır. Poemanın "Çaylar axmazmış tərsinə" hissəsində doğma yurduna qayıdan qəhrəmanın dili ilə xatirələri belə təsvir edir:

Gördüm ki, doğma evdəyəm...
Ev o evdir, bağ da o bağ
Həm böyüyəm, həm də uşaq...
yaşıllaşıb yaza sarı
Yumşaq söyüd budaqları.
Canıma soyuq dolubdu
Qışla yazın arasında
Əllərim çat-çat olubdu.
Nənəm hər zamankı kimi
Yağa tutub əllərimi...

H.İsaxanlının "Ziyarət" poemasında yurda bağlılıq, yurda qovuşmaq və yurdu qorumaq poetik şəkildə təlqin edilir. Açıq tendensiya ilə deyilməsə də yurda sədaqət, doğma torpağa bağlılıq poemanın əsas leytmotivini təşkil edir.

Ümumiyyətlə, Hamlet İsaxanlı həm şeirlərində, həm də poemasında özünün daxili aləmini təsvir edir, bu aləmdən gələn sualları da oxucuya ünvanlayır. Oxucu da bu suallara cavab tapmağa çalışır. Onun poeziyasında obrazlılıq və obrazlar mahiyyət etibarilə yenidir, poetik fikirlərində daxili hərəkət daha güclüdür. Hamlet İsaxanlının poeziyası həm də şəxsi ləyaqətinin, mənəviyyatının və istedadının anatomiyasıdır; necə varsa, eləcə də görünür.

Bədirxan Əhmədli
filologiya üzrə elmlər doktoru,
professor













KHAZAR UNIVERSITY HOSTS INTERNATIONAL CONFERENCE

On November 7-9, Khazar University and Labex TransferS in affiliation to the French National Research Center (CNRS) jointly organized an international conference on "Encounters and Interweavings in the Caucasus: a long-term history of cross-cultural transfers" which was held at Khazar University.

Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, opened the conference. Then presentations were made by scholars from French, Switzerland, Russia, Georgia, Turkey and Azerbaijan about cultural transfer processes in the Caucasus in the fields of history, archeology, and cultural studies.

The conference focused on the cultural history of the Caucasus or more precisely on the mixed forms generated by cultural encounters from Antiquity to the end of the Soviet Period.

The conference included two parts. The first was plenary sessions on November 7 and 8. The second part was a cultural program on November 9 in which visitors were given a tour of Ateshgah Temple National History-Archeology Reserve, Martyrs' Cemetery and the Old City. At the end of the day, a concert with musical and dance numbers was given in their honor at the Khazar University downtown campus (122 Bashir Safaroghlu St.).

The conference was reported by multiple TV channels and news agencies.

LETTER TO HAMLET ISAXANLI FROM FRANCE

As we previously reported, on November 7-9 Khazar University and Labex TransferS in affiliation to the French National Research Center (CNRS) jointly organized an international conference on "Encounters and Interweavings in the Caucasus: a long-term history of cross-cultural transfers" which was held at Khazar University. Michele Espagne, Director of the French National Center for Scientific Research and one of the conference participants, sent the following letter to Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, after the conference:

Dear Professor Isakhanli,

After returning home I want to express my admiration for the perfect organization of our conference at Khazar University.

We have been hosted with a hospitality I was not used to meet in academic circles.

Your staff and your students have been particularly nice to us.

We have left Baku with the most favourable impression and we will have wonderful memories of our stay in Azerbaijan.

I hope we find an opportunity to publish the proceedings in an English version , and if you agree with the project we think about a second possibly extended French version, like the book which has been edited after a previous conference in Samarkand.

With best wishes
Michel Espagne









"Xəzər"də yubileylər





















Noyabrın 21-də Xəzər Universitetində yubiley tədbiri keçirildi. Universitet rəhbərliyinin və əməkdaşların iştirak etdikləri tədbirdə universitetin baş mühasibi Kərim Kərimovun 80, Azərbaycan dili və ədəbiyyatı müəllimi Elza İsmayılovanın 60 (üzürlü səbəbə görə tədbirdə iştirak etmirdi) və Elektronika və telekommunikasiya departamentinin müdiri Nuru Səfərovun 50 illik yubileyləri təntənəli şəraitdə qeyd edildi.

Tədbirin aparıcısı, Məzunlarla İş Mərkəzinin direktoru Baba Bayramlı yubilyarların həyat və fəaliyyəti haqqında qısa məlumat verdikdən sonra onlar haqqında universitetin Multimedia mərkəzi tərəfindən hazırlanmış slayd-şoular nümayiş olundu.

Universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı, rektor Hassan Niknafs, prorektor Məhəmməd Nuriyev, Xəzər Universiteti Avropa və Orta Şərq Araşdırmaları Mərkəzinin direktoru Fərda Əsədov, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri Eldar Şahgəldiyev və İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirova çıxış edərək, yubilyarları təbrik etdilər, onlara uzun ömür, fəaliyyətlərində uğurlar arzuladılar.

Yubilyarlara gül dəstəsi, təbrik məktubu və hədiyyə təqdim olundu. Onlar yubiley tortunu kəsdikdən sonra çıxış edərək, universitet rəhbərliyinə və iştirakçılara təşəkkürlərini bildirdilər.

Tədbirdə universitetin Musiqi və incəsənət departamentinin müdiri, pianoçu Zülfiyyə Sadıqovanın müşayiəti ilə dövlət filarmoniyasının solisti, Xəzər Universirtetinin müəllimi Məhsəti Cabbarovanın ifasında mahnılar səsləndi, iştirakçılar rəqs edib, əyləndilər.

HAMLET İSAXANLI "AÇIQ DƏRS" PROQRAMINDA

Noyabrın 2-də İctimai Televiziyada yayımlanan "Açıq dərs" proqramının budəfəki mövzusu "Azərbaycanda elmin inkişafı və elmi nəşrlər problemi"nə həsr olunmuşdu. Proqrama ekspert kimi dəvət olunmuş Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı mövzu ətrafında təhlil apardı, Sovet dövrü ilə müstəqillik dövrü arasındakı fərqləri vurğuladı, elm adamlarının, institut və universitetlərin problemləri haqqında danışdı. O, nəzəriyyə və tətbiq arasındakı fərqlərə, elmi tədqiqatla sənaye və şirkətlər arasındakı əlaqələrə toxundu, elmi jurnallar, o cümlədən, "Khazar Journal of Humanities and Social Sciences" ("Xəzər Humanitar və Sosial Elmlər Jurnalı"") haqqında məlumat verdi, Xəzər Universitetində elmin inkişafı üzrə görülən işlərdən söhbət açdı. H.İsaxanlı elmin inkişafı üzrə dövlət siyasətinin vacibliyini qeyd edərək, qrantların qeydiyyatı və miqrasiya sahəsindəki mövcud problemlərə toxundu və yaranmış maneələrin aradan qaldırılması yolları barəsində mülahizələrini bildirdi.

Xəzər Universiteti, Bakı Dövlət Universiteti və Thomson Reuters agentliyinin intellektual mülkiyyət üzrə Bakı nümayəndəliyinin təmsil olunduğu "Açıq dərs" canlı proqramında elmin inkişafı üzrə qarşıda duran problemlər ətraflı şəkildə müzakirə edildi.

OPEN CLASS PROGRAM ON PUBLIC TV

On November 2, the Open Class program was broadcast live on Public TV on the theme "Scientific Development and Academic Publications in Azerbaijan." Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated in the program and presented his analysis of the current situation. He emphasized the differences between the Soviet period and today, and he spoke about problems of scholars, institutes and universities. He also touched on theoretical and practical differences as well as connections between scientific research and industry. He gave information about scientific journals including Khazar Journal of Humanities and Social Sciences, and about work that has been done at Khazar University towards the development of science. He emphasized the importance of government policy on scientific development and mentioned current problems in the fields of grant registration and migration as well as possible solutions to solve them.

Participants on the Open Class program included representatives of Khazar University, Baku State University and the Baku representative for Intellectual Property of the Thomson Reuters Agency. The program included a detailed discussion about the challenges remaining for the development of science.

ƏMƏKDAŞLARIMIZIN MƏQALƏSİ XARİCDƏ ÇAP OLUNUB

Xəzər Universiteti Humanitar və sosial elmlər fakültəsinin əməkdaşları Mələk Kərimova və Nərmin Osmanlının həmmüəllif olduqları *"The Brief Symptom Inventory: A validity-reliability study of sample from Azerbaijan"* ("Qısa simptom inventarı: Azərbaycan nümunəsində gerçəklik-etibarlılığın tədqiqi") adlı məqalə *"Education and Training Studies"* jurnalında (Vol 4, No12; December (ISSN 2324-805 XE-ISSN 2324-8068) çap olunmuşdur.

2000-ci ildən başlayaraq, təxminən 260 tədqiqatda istifadə edilən bu test ölkəmizdə Xəzər Universiteti adından yoxlanılaraq uyğunlaşdırılmışdır. Pasiyentin ilkin psixoloji simptomlarının müəyyənləşdirilməsində psixoloq və psixiyatrlar üçün əlverişli klinik vasitə olan bu test tədqiqatçılar tərəfindən də istifadə edilə bilər.

Maraqlananlar məqaləni aşağıdakı link vasitəsilə oxuya bilərlər:

http://redfame.com/journal/index.php/jets/article/view/2000/2109.









TÜRKİYƏLI QONAQLAR XƏZƏR UNİVERSİTETİNDƏ

Noyabrın 22-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı Türkiyə Cümhuriyyətinin Prezidenti Rəcəb Tayyib Ərdoğanın baş müşaviri, keçmiş Mədəniyyət və turizm naziri Yalçın Topçunu, TBMM-nin AK Parti Ordu Millət vəkili Metin Gündoğdunu və digər şəxsləri qəbul etdi. Y.Topçu H.İsaxanlıya hədiyyə təqdim etdi. Sonra türkiyəli qonaqlar universitetin Mərmər salonunda tələbələrlə görüşdülər. Y.Topçu tələbələr qarşısında Türkiyədəki ictimai-siyasi vəziyyətlə bağlı məruzə etdi, tələbələrin suallarını cavablandırdı.

H.İsaxanlı türkiyəli dövlət adamına universitet rəhbərliyi və tələbələr adından dərin təşəkkürünü bildirdi. Xatirə şəkilləri çəkildi. Qonaqların şərəfinə ziyafət verildi.

TURKISH GUESTS AT KHAZAR

On November 22, Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, hosted a delegation of guests from Turkey including Yalçın Topçu, Senior Advisor to President of the Republic of Turkey R. T. Erdoğan and former Minister of Culture and Tourism; Metin Gündoğdu, Parliament Member for the AK Party Army of the Grand National Assembly of Turkey; and other guests. Y. Topçu presented a gift to H. Isaxanli. Then the guests met with Khazar University students in the Marble Hall. Y. Topçu gave a presentation about the political situation in Turkey and answered students' questions.

H. Isaxanli thanked the Turkish statesmen on behalf of the university administration and student body. Then a luncheon was served in honor of the guests.



DÖVLƏT BAYRAĞI GÜNÜ TƏNTƏNƏ İLƏ QEYD OLUNDU



Noyabrın 8-də "Dünya" məktəbinin müəllim və şagird kollektivi böyük ruh yüksəkliyi ilə Dövlət Bayrağı Gününü qeyd etdilər.

Məktəbin tarix müəllimi Lamiyə Mədətli zamanın ağır sınaqlarından çıxmış bayrağımızın tarixindən söz açdı. Üçrəngli bayrağın rəmzləri, rəngləri, keçdiyi keşməkeşli, şərəfli yoldan danışan L. Mədətli bildirdi ki, bayrağımız şərəfimiz, adımız və yurdumuza, torpaqlarımıza sahibliyimizin rəmzidir.

Sonra dahi bəstəkar Fikrət Əmirovun "Qarabağ" musiqisi ifa olundu, müqəddəs bayrağımıza həsr olunan şeirlər səsləndirildi.

Balacalar tərəfindən ifa olunan milli rəqs hər kəsdə şən əhval ruhiyyə yaratmaqla bərabər, həm də milliliyimizə, ənənələrimizə bağlılığımızı bir daha xatırlatdı.

"PRAKTİKİ MÜHƏNDİSLİK VƏ LİDERLİK PROQRAMI" ÇƏRÇİVƏSİNDƏ TƏDBİR

Noyabrın 8-də "Dünya" məktəbində "Praktiki mühəndislik və liderlik proqramı" ("Help") çərçivəsində tədbir keçirildi. Tədbirdə məktəbin şagirdləri, müəllimləri və valideynlər iştirak edirdilər.

"Help" tədris metodiki proqramı mentor-təlimçi indeksli olub, qarşıya qoyulan problemlərin həlli yolunu axtarmağa, kəşf etməyə, ixtira ortaya qoymağa və davamlı olaraq problemlərdən çıxış yolu axtarmağa yönəldilmiş elmi, praktiki, mühəndislik, liderlik və robotexnika proqramıdır. Proqram 5-11, 11-15, 11-18 yaşlı şagirdlər üçün nəzərdə tutulur.

Bu proqram Amerikada, Yaponiyada, eləcə də, Azərbaycanın Xəzər Universiteti, Bakı Ali Neft Məktəbi kimi təhsil müəssisələrində tədris olunur.









2016-cı ilin noyabrında Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyinin dəstəyi ilə 336 səhifəlik "Mirnazim Əsədullayev – Sənətə sədaqət" kitabı "Nurlar" Nəşriyyat-Poliqrafiya Mərkəzində çap olunmuşdur. Kitabın müəllifi Əhsən Rəhmanlıdır.

Kitabın "Müsahibələr... Xatirələr... Fikirlər" bölməsində Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının "Sağ ol, Əziz Mirnazim!" adlı məqaləsi yer almışdır. Məqaləni oxucularımıza təqdim edirik.

HAMLET İSAXANLI

Xəzər Universitetinin təsisçisi
Direktorlar və Qəyyumlar Şurasının sədri

SaĞ OL, ƏZİZ MİRNAZİM!

Səfərdən yeni qayıtmışdım. Xəzər Universitetinin Nizami rayonunda (Məhsəti 41-də) yerləşən korpusunda, mən oturduğum binanın birinci mərtəbəsinə daxil olanda adətən elanlar, bildirişlər, afişalar asılan tərəfə baxırıq. Rəngbərəng afişalardan bir qədər aralıda solğun rəngli bir kağız üzərində iki tələbəmizə ünvanlanmış başsağlığı mətnini gördüm. Birinci başsağlığı bir tələbəmizin atası Nazim Əsədullayevin vəfatı ilə bağlı idi. Donub qaldım. Həmişə gülərüz, şən, sağlam, el adamı kimi tanıdığım Mirnazim müəllimə birdən-birə nə oldu? İctimaiyyətlə əlaqələr şöbəmizin müdiri Ələvsət Əmirbəylini çağırdım, nə olub deyə ondan soruşdum, o da çaşdı, ola bilməz, Mirnazim müəllimi bu günlərdə görmüşəm - dedi. Bir az sonra geri qayıtdı, gülə-gülə Mirnazim müəllim sağ-salamatdır ("fikirləşdim kimə zəng edim, sonra onun öz telefonuna zəng etdim, cavab verdi, daha heç nə demədim...") və sizinlə görüşmək istəyir, dedi. Dərindən və rahat nəfəs aldım.

Qısa təhlil səhvimi üzə çıxardı, ilk əvvəl, mənim məşhur kamança ustası olan dos-

tumun adı Nazim deyil, Mirnazimdir. İkincisi, Mirnazimin hər iki oğlunu tanıyıram, Elnur bizdə, Xəzər universitetinin tibb fakültəsində oxuyub və məzun olub, qabiliyyətli oğlandır, ixtisası üzrə məsul vəzifədə çalışır, üstəlik, o da musiqiçidir, universitetdə oxuduğu illərdə qarmonda gözəl ifası ilə həmişə konsert proqramlarımızda iştirak edər, bizi sevindirərdi. Toğrul isə atasının birbaşa davamçısıdır, artıq kifayət qədər tanınmış kamança ustasıdır, sənətşünaslıq doktorudur, əməkdar artistdir, Milli Konservatoriyanın dosentidir. Məni çaşdıran bir şey də "bəlkə mən bilmirəm, Mirnazimin üçüncü uşağı da varmış və o da Elnur kimi Xəzər Universitetinə daxil olub" fikri olmuşdu.


Ertəsi gün Mirnazim yanıma gəldi, içəri girəndə "şükür, çox şükür, sağ-salamatsan, xoş gəlibsən" deyib qucaqladım onu. Mirnazim bir az təəccüblə üzümə baxdı. Əhvalatı ona söyləyim. Ləzzətlə gülüşdük. Bernard Şou'nun bənzər əhvalatını yada saldıq (B.Şou bir qəzetdə özü haqqında nekroloq-başsağlığı yazıldığını görmüş və qəzetə qışa bir məktub göndərmişdi: B.Şounun ölümü haqqında xəbər bir qədər şişirdilmişdir...).

Kamança sehrli bir musiqi alətidir, öz iniltisi və fəryadı ilə insanı, insan səsini andırır, oynaq olmağı da bacarır. Ustad kamançaçılar azdır və xalq onları tanıyır. Mirnazim Əsədullayevi klassik ifa üslubuna sadiq, dolu yaradıcı həyat keçirən görkəmli kamança ustası və müəllim kimi uzaqdan- uzağa çoxdan tanıyırdım. Sonra şəxsən tanış olduq, böyük xanəndəmiz Arif Babayevlə birlikdə Xəzər Universitetində muğam və xalq musiqisi dərsi deməyə dəvət etdim. Daha yaxından tanış olduq, çox maraqlı adam olduğunu yəqin etdim. Çox məşhur xanəndələri müşayiət etmiş, məşhur olmayanları müşayiətdən də çəkinməmişdir. Ümumiyyətlə, o, özünü dartan adamlardan deyil, səmimi və dostluq etməyi sevəndir. Kamançaçıları, adətən, əsasən xanəndələri müşayiətə görə tanıyırlar. Lakin Mirnazim müxtəlif muğamlarımızın ifaçısı kimi də əmək sərf etmiş, ifaları lentə alınmış, həmçinin, təcrübəli müəllimliyindən doğan məqalələr və metodik vəsaitlər yazmışdır.

Azərbaycan musiqiçiləri dünyanı gəzib konsert və tamaşalarda iştirak etməklə Azərbaycanı tanıdır, zəngin musiqi mədəniyyətimizi nümayiş və təbliğ edirlər. Bu işdə onların əvəzi yoxdur. Mirnazim Əsədullayev də öz kamançası ilə Avropa, Asiya və Amerikanın müxtəlif guşələrində, müxtəlif ölkələrdə çıxış etmiş, musiqimizi tanıtmağa və sevdirməyə çalışmışdır. Mirnazim Xəzər Universiteti musiqi və incəsənət departmentinin müəllimi kimi İtaliyada və Türkiyədə Arif Babayevlə və tarzən Ramin Rzayevlə birlikdə konsertlər vermişdir. 2012-ci ildə İtaliyaya səfərimiz yaxşı yadımdadır. Milan yaxınlığında yerləşən Vercelli şəhərində UNESCO-nun dəstəyi ilə 8-ci Xalq Poeziyası Festivalı keçirilirdi (7-11 noyabr). Festivalın mərkəzi mövzularından biri Azərbaycan idi. İtaliyada yaşayan tarixçi Mixail Talalayın "İtaliyada Azərbaycan partizanları" məruzəsi, o cümlədən əfsanəvi partizan "Mixaylo" ləqəbli Mehdi Hüseynzadə haqqında aşkar etdiyi yeni faktlar bizi, təbii ki, həyəcanlandırdı. Mən "Musiqi və poeziyanın əlaqəsi" və "Azərbaycan musiqi mədəniyyəti və bəstəkarlıq məktəbində muğamın yeri və rolu" haqqında məruzə etdim, sonra muğam üçlüyümüzü təqdim etdim. Konsert proqramı böyük maraq doğurdu, musiqiçilərimiz təkrar-təkrar səhnəyə qayıtmalı oldular və yorğunluğa baxmayaraq hər qayıdışda daha gözəl ifaları ilə italiyanları və digər ölkələrdən gəlmiş elm və sənət adamlarını, hökumət və iş adamlarını heyran etdilər.

Mirnazim yüksək peşəkar musiqiçidir, onu dinləmək, ondan öyrənmək və məsləhət almaq çox xoşdur. Deyib-gülən, duzlu zarafatları ilə aranı canlandıran, hamıya hər an köməyə gəlməyə hazır olan Mirnazimlə yol yoldaşı olmaq adama ləzzət verir. Mirnazimin yetişdirdiyi iki tərbiyəli, peşəkar, səviyyəli oğul da Mirnazim kimi ali keyfiyyətlilər sırasındadır.

Əziz Mirnazim, sağ ol! Gözəl yaşaya bilirsən, uzun yaşa!



XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİNİN REDAKTORLUĞU İLƏ İKİ KİTAB NƏŞR OLUNUB

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Qardaşxan Əzizxanlının redaktorluğu ilə iki kitab nəşr edilmişdir.

"Zəkioğlu" nəşriyyatında Xaqani Əliyevin müəllifliyi ilə işıq üzü görən iri həcmli (1068 səh.) "İngiliscə-Azərbaycanca əhatəli lüğət" (elmi rəyçi: prof. N.Məmmədli, elmi redaktor: Q.Əzizxanlı) kitabı ilk növbədə tərcümə fakültəsində oxuyan tələbələrə, tərcüməçilərə, eyni zamanda, tərcüməçiliyi özünə ikinci peşə seçmiş mütəxəssislərə ünvanlanmışdır. Bu sahə ilə maraqlananların istifadəsinə verilən lüğət təqribən 150 000 söz və söz birləşməsindən ibarətdir. Tərtibçi müəllif lüğətin tərtib prinsipləri bərədə kitaba ön söz yazmışdır.

Məmməd Arazın "Qarabağ simfoniyası" kitabını isə "Elm və təhsil" (516 səh.) nəşriyyatı oxuculara təqdim etmişdir. Kitabda Azərbaycanın tanınmış şairinin vətəndaş mövqeyini əks etdirən publisistikası, qələm yoldaşları haqqında məqalələri, həmçinin, indiyədək çap edilməmiş müsahibə və ssenariləri toplanmışdır.


Kitabın tərtibçisi Gülxanım Fətəliqızı, redaktorları Qardaşxan Əzizxanlı və Nurlan Umuddur.

KHAZAR UNIVERSITY INSTRUCTOR BECOMES EDITOR OF TWO BOOKS

Gardashkhan Azizkhanli, instructor of Khazar University's Department of Azerbaijani Language and Literature, is the editor of two books which were recently published.

The first is English-Azerbaijani Comprehensive Dictionary (academic advisor: Prof. N. Mammadli, academic editor: G. Azizkhanli, author: Khagani Aliyev) of 1068 pages published by Zakioghlu Press. The dictionary contains 150,000 words and specific terms for 60 fields.

The second book is Karabakh Symphony by Mammad Araz, published by Science and Education Press (Baku, 2016, 516 pages). The book includes editorial essays about the theme of homeland, articles about the writer's counterparts, and interviews and scripts that have not been previously published. The book is compiled by Gulkhanim Fataligizi and edited by Gardashkhan Azizkhanli and Nurlan Umud.



TƏLƏBƏLƏR ÜÇÜN USTAD DƏRSİ KEÇİRİLDİ

Oktyabrın 31-də Xəzər Universitetinin Məzunlar Assosiasiyası və Xəzər Universitetinin Məzunlarla İş Mərkəzi magistr və 3-cü və 4-cü kurs bakalavr tələbələri üçün "Uğurlu karyeranın qurulması yolları" mövzusunda ustad dərsi keçirdi. Məzunlarla İş Mərkəzinin direktoru Baba Bayramlı iştirakçıları salamladı və silsilə tədbirlər kimi keçirilməsi nəzərdə tutulan ustad dərslərinin tələbələr üçün əhəmiyyətini vurğuladı. Məzunlar Assosiasiyasının prezidenti, "Bank of Baku" ASC İdarə Heyətinin sədr müavini Eldar Həmidov öztinün karyera təcrübəsi barədə danışdı və tələbələrə faydalı tövsiyələr verdi.

Xəzər Universitetinin məzunu Laura Həmidovanın rəhbərlik etdiyi "FireWorks" şirkətinin əməkdaşları "Uğurlu karyeranın qurulması yolları" mövzusunda geniş təqdimat keçirdilər.

İnteraktiv şəraitdə keçən təqdimatda yerli və xarici tələbələr fəal iştirak etdilər.



MASTERCLASS FOR STUDENTS

On October 31, Khazar University Alumni Association and Khazar University Center for Alumni Relations held a masterclass for third- and fourth-year bachelor's students on "Ways to Build a Successful Career." Baba Bayramli, Director of the Center for Alumni Relations, greeted the participants and emphasized the importance of this masterclass series which is organized for students. Eldar Hamidov, Vice Chair of the Executive Board of Bank of Baku and the President of the Alumni Association, spoke about his own career experience and gave the students useful advice.

A presentation was also made by employees of the Fireworks HRM Company run by Khazar University alumna Laura Hamidova.

Local and international students participated in the interactive presentation.







"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU



TÜRK DÜNYASININ ALİMLƏRİ MÜKAFATLANDIRILDILAR

Noyabrın 14-15-də Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, AMEA Rəyasət Heyəti, AMEA Nəsimi adına Dilçilik, Nizami adına Ədəbiyyat və akademik Z.Bünyadov adına Şərqşünaslıq institutlarının birgə təşkilatçılığı ilə I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirildi.

Konfrans çərçivəsində Nizami adına Ədəbiyyat İnstitutunda "Türk xalqlarının ortaq dərslikləri" mövzusunda "Ortaq türk tarixi", "Ortaq türk ədəbiyyatı", "Ortaq türk coğrafiyası" dərslikləri ilə bağlı təkliflər müzakirə olunub. Nizami adına Ədəbiyyat İnstitutunun direktoru, Azərbaycan Milli Elmlər Akademiyasının vitse-prezidenti, akademik İsa Həbibbəyli tədbiri giriş sözü ilə açaraq, müzakirənin məqsəd və əhəmiyyətini izah edib.

Beynəlxalq Türk Akademiyasının prezidenti professor Darxan Kıdıralı (Qazaxıstan) çıxış edərək bildirib ki, Akademiyanın "Türk xalqlarının ortaq dərslikləri" layihəsi ölkə prezidenti Nursultan Nazarbayevin böyük dəstəyi ilə baş tutmuşdur. Niyə məhz cofrafiya, tarix və ədəbiyyat fənləri üzrə dərsliklərin hazırlanması məqsəd götürüldüyünə aydınlıq gətirən professor bidirib ki, tarix coğrafiyada, coğrafiya tarixdə mövcud olduğu üçün, ədəbiyyat isə mədəniyyət, düşüncə demək olduğu üçün bunlar diqqətə alınıb.

Türkiyə Hacettepe Universiteti Ədəbiyyat Fakültəsi Türk Dili və Ədəbiyyatı Bölümü Başkanı Şükrü Haluk Akalın, professorlar Ahmet Bican Ercilasun (Türkiyə), Ramazan Korxmaz (Türkiyə), Osman Fikri Sertkaya, Fikrət Türkmən, akademik Teymur Kərimli çıxış ediblər.

"Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına daxil olan Elmlər Akademiyalarının və Beynəlxalq Türk Akademiyasının kitabxanalarının Assosiasiyası"nın yaradılması haqqında layihə müzakirə edilib. Layihə haqqında AMEA Mərkəzi Elmi kitabxanasın direktoru Leyla İmanova məlumat verib.

Türk Akademiyasının Prezidenti professor Darxan Kıdıralı Nizami adına Ədəbiyyat İnstitutunun, professor Ahmet Bican Ercilasun Nəsimi adına Dilçilik İnstitutunun fəxri doktoru adına layiq görülüblər.

Ortaq türk dəyərlərinin təbliğində xidmətlərinə görə Ahmet Bican Ercilasun, Osman Fikri Sertkaya, Fikrət Türkmən Beynəlxalq Türk Akademiyasının medalı ilə təltif olunublar.



"ƏLİŞİR NƏVAİ VƏ AZƏRBAYCAN ƏDƏBİYYATI" MÖVZUSUNDA BEYNƏLXALQ ELMİ KONFRANS

Noyabrın 16-da Nizami adına Ədəbiyyat İnstitutu və Özbəkistan Respublikasının Azərbaycandakı Səfirliyinin birgə təşkil etdikləri böyük şair Əlişir Nəvainin 575 illiyinə həsr olunmuş "Əlişir Nəvai və Azərbaycan ədəbiyyatı" mövzusunda Beynəlxalq elmi konfrans keçirilib.

AMEA-nın vitse-prezidenti, akademik İsa Həbibbəyli konfransı giriş sözü ilə açaraq, qədim yaradıcılıq ənənələrinə malik özbək ədəbiyyatının əsas xüsusiyyətlərindən bəhs edib, Azərbaycan-özbək ədəbi əlaqələrinin tarixi haqqında geniş məlumat verib. Akademik İsa Həbibbəyli Əlişir Nəvainin heykəlinin Bakıda ucaldılmasını əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan Azərbaycan-özbək ədəbi, mədəni əlaqələrinin inkişafına bir nümunə olduğunu söyləyib. Hər iki ədəbiyyatın qarşılıqlı tədqiqinə və ədəbi əlaqələrin daha da inkişaf etməsinə imkanlar yaratması baxımından akademik İsa Həbibbəyli konfransın əhəmiyyətini yüksək qiymətləndirib.

Özbəkistanın Azərbaycandakı səfiri Şerzod Fayziyev Azərbaycan-Özbəkistan ədəbi, mədəni əlaqələrinin əhəmiyyətindən söz açıb, akademik Teymur Kərimli Nəvainin yaradıcılığı, poemalarının ideya mahiyyəti haqqında maraqlı məruzə edib.

"Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsinin müdiri, filologiya elmləri doktoru Almaz Ülvi Binnətovanın "Əmir Əlişir Nəvai ədəbi xəzinəsinin inciləri", Özbəkistan-Azərbaycan Dostluq Cəmiyyətinin həmsədri filologiya üzrə fəlsəfə doktoru, dosent Gülbahar Aşurovanın "Tarixə nəzər və müstəqillik dövrü nəvaişünaslığı", filologiya üzrə fəlsəfə doktoru Akif Bağırovun "Nəvai və intibah", "Azərbaycan-Türkmənistan-Özbəkistan ədəbi əlaqələr" şöbəsinin əməkdaşları – filologiya üzrə fəlsəfə doktorları Yaşar Qasımbəylinin "Əlişir Nəvai və XIII-XIV əsrlər özbək poeziyası", Siracəddin Hacının "Nizami Gəncəvinin "Sirlər xəzinəsi" və Nəvainin "Heyrət ül-əbrar" poemalarının müqayisəli təhlili" adlı mövzularda məruzələri dinlənib.

Ədəbiyyat İnstitutu tərəfindən nəşr olunan yeni kitablar qonaqlara hədiyyə olunub. Özbəkistan səfirliyi və Nizami adına Daşkənd Dövlət Pedoqoji Universiteti adından akademik İsa Həbibbəyliyə hədiyyə və kitablar təqdim edilib.

Tədbir boyu Nəvainin həyat və yaradıcılığını əks etdirən slaydlar nümayiş etdirilib.

"XƏZƏR"İN TƏLƏBƏSİ "UĞUR HEKAYƏSİ"Nİ DANIŞDI

3500 TƏLƏBƏSİ OLAN 24 YAŞLI KONSULTANT

Rasim Adjalov: "İnsanların potensialı irəli gedəndə deyil, uduzanda daha çox üzə çıxır"

Noyabrın 4-də "Kaspi" qəzetinin internet səhifəsində Xəzər Universitetinin İqtisadiyyat və menecment fakültəsinin tələbəsi Rasim Adjalovla müsahibə dərc olunmuşdur. Müsahibəni oxucularımıza təqdim edirik.



24 yaşı olmasına baxmayaraq, artıq özündən yaşca böyük və kiçik 3500 tələbəsini biznes həyatına hazırlayıb. Həyatda bir şüarı var: "əgər çalışaraq istədiyimi əldə edə bilərəmsə, niyə də etməyim?" Onun fikrincə, bütün məqsədlərə çatmaq üçün maneələr var. Maneələr varsa, yolu dəyişmək lazımdır, amma məqsəddən dönmək olmaz. Əgər insan sona kimi getməyi bacarırsa, o, uğur qazanacaq. Çünki sona kimi gedənlər daim qalibdir. Əsl mübarizə yıxılandan sonra qalxana kimidir. Qalxa bildinsə, sən uğurlusan...

Müsahibimiz biznes məsləhətçi, "Young Business Factory", "Oley.az", "Georgia Sweet House", "Cool Business" şirkətlərinin yaradıcısı Rasim Adjalovdur. 2013-2014-cü illərdə İqtisadi İnkişaf Nazirliyinin dövlət tədbirlərində konsultant olaraq çalışıb. Həmçinin Almaniya, Türkiyə, Danimarka, Litva, Macarıstan, Gürcüstan, Latviya, Hollandiya kimi ölkələrdə biznes konsultant kimi təlimlər verib.

Rasim universitet təhsilini dondurub, iş fəaliyyətinə başlayıb. Deyir ki, təhsilini dondurmaqda əsas məqsədi gənclərə universitet diplomu olmasa belə, iş qurmağın mümkünlüyünü sübut etmək idi: "Mənə görə, univeristetə daxil olmaq bir vasitədirsə, təhsil almaq məqsəddir. Hədəf isə həmin təhsili səmərəli istifadə etməkdir. Mən Xəzər Universitetində diplom olmadan belə iş qura bilməyin mümkünlüyünü sübut etmək üçün 3-cü kursda təhsilimi dondurdum. 1 illik fəaliyyətim ərzində 4 şirkət qurdum. Özəl şirkətlərdə təlimlər keçməyə başladım. Gənclərə sübut etmək istədim ki, insanın hədəfi olarsa, universiteti bitirmədən belə, onu həyata keçirə bilər. Önəmli olan aktivlik, sənin bacarığın və aldığın təhsildən səmərəli istifadə etməkdir. 1 il sonra universitetə qayıdıb təhsilimi davam etdirdim".

- "Young Business Factory" və "Oley.az" gənclərə nə verir?

- "Young Business Factory"-ni 2013-cü ildə İstanbulda təsis etdik. Şirkətin hazırda dünyada 160-dan çox partnyoru var. Bir gəncə karyerasında nə lazımdısa, onu bizim şirkətdən ala bilər. Biz tələbəyə sıfırdan şirkətdə necə işə düzəlməyin, operator vəzifəsindən başlayıb rəhbər vəzifəyə kimi qalxmağın yollarını öyrədirik. Yetişdirdiyimiz gənclərin əksəriyyətini məşhur şirkətlərə işə göndəririk. Hətta xarici ölkələrə göndərdiyimiz məzunlarımız olub. Bütün biznes və karyera proqramlarımıza gəncləri müsahibələr əsasında seçirik. Bizə müraciət edən tələbələr hədəfli olmalıdır ki, biz onları hədəflərinə çatdıraq. Yaş həddi qoymamışıq. Məqsədimiz biznes sahəsində sıfırdan işçi hazırlamaqdır. Təlimlərimizdə iştirak edən işçiləri şirkət rəhbərləri ilə görüşdürürük, əksəriyyəti həmin şirkətlərdə işləyirlər. Standart olaraq 16 yaşından 50 yaşına qədər insanlar müraciət edir. Hər ay müraciət edənlərin sayı 500-ü keçir. Həmçinin şirkət beynəlxalq düşərgələr təşkil edir. Bununla yanaşı, işçilərin dünyagörüşünü və əlaqələrini artırmaq üçün digər ölkələrin şirkət nümayəndələri ilə görüşlər keçiririk. Bundan əlavə, "Modern menecment" adlı layihəm var ki, sırf kadr yetişdirməklə məşğuldur. İldə bir dəfə olur. O təlimlərdən keçən şöbə müdirləri bu gün filial müdirləridir.

"Oley.az" da sırf gənclərə dəstək məqsədilə açılan veb saytdır. Bir gəncə lazım olan bütün faydalı xəbərləri bu saytda tapa bilər. Ən çox Amerika, Avropa ölkələri ilə bağlı xəbərlər yer alır. Gənclərin xaricə inteqrasiyası ilə bağlı məsələlərə önəm vermişik. Oley.az Azərbaycanda bütün xaricdə təhsil sərgilərinin təşkilatçısı və informasiya dəstəyi verən saytdır.

- Az yaşınız var, amma böyük işlər görürsünüz... Adətən bu yaşda gənclər əyləncəyə üstünlük verir...

- Əyləncə hər zaman olacaq. Mən yaşımdan tez böyüdüm. Hədəf, məqsəd hər bir insanda fərqli olur və hər insanın zövqləri də müxtəlif olur. Bəziləri boş vaxtlarını əylənərək keçirməkdən zövq alır. Bir qism gənc isə, mənim kimi, işləməkdən zövq alır. Mən müəyyən işlər görüb nə isə əldə etməkdən məmnun qalıram. Düşüncə tərzim belədir ki, əgər mən bu işi görə bilərəmsə, nə üçün bunu etməməliyəm. Bu şüarla hərəkət edirəm. İnsan özünü hər yaşda yeni imkanlarla dəyərləndirməlidir. Avropaya çıxanda hiss edirsən ki, nə qədər uğurlu insanlar var. Nailiyyət əldə etmək üçün dayanmadan işləyirlər. Məncə, hər bir gəncin məqsədi bu olmalıdır. 15-16 yaşımdan iş həyatına atılmışam. Məktəb illərindən asudə vaxtlarımı düzgün dəyərləndirmişəm. İlk iş yerim olan "Dirol"da transportyor işləmişəm. Daha sonra "Nar mobile"ın açılan ilk 10 dükanının birində menecer işləmişəm. Universitetə daxil olduqdan sonra ictimai sektora daha çox yaxınlaşdım. Müəyyən insanlarla tanış oldum. Dövlət tədbirlərində məsləhətçi kimi çıxış etməyə başladım. Sahibkarlıqla bağlı bir sıra layihələr, problemlər araşdırıb lazımi qurumlara təqdim etdik. Burada da müəyyən uğurlarımız oldu.

- Gənclərlə çox işləyirsiniz. Gənclərimizin biznes bacarıqlarını necə qiymətləndirirsiniz?

- 2010-cu illə müqayisədə xeyli inkişaf var. Amma istiqamətləndirmə çox zəifdir. Müəyyən şəbəkələr var ki, gəncləri aldadır. İnvestisiyaların düzgün bölünməməsi sahibkarlığa yeni başlayan gəncləri ruhdan salır. Əgər bir gənc universitetə daxil olursa, iqtisadiyyat və biznes müəllimləri ona dəstək verib, motivasiya edib ruhlandırmırsa, bu gənc standart olaraq yalnız universitet həyatını görür. Orda nə sosial həyatı olur, nə də ətrafı genişlənir. İnsanı karyerasında irəli apara biləcək 3 əsas qayda var: liderlik, kommunikasiya-ünsiyyət və analiz etmək qabiliyyəti... Bizim cəmiyyətdə reallıq budur ki, 100 nəfərdən 10-u işə başlayır, 90-ı isə gözləyir ki, kimsə ona nəsə təklif etsin. Bu cəhətdən universitetlərdə fəaliyyəti bir az da genişləndirmək lazımdır. Biz də yanvar ayından universitetlərdə seminarlara başlayacağıq. Məşhur türk təlimçi Ahmet Murtuzaoğlunu dəvət etmişik. 3000 tələbəyə ödənişsiz təlim keçəcək.

- Uğurlu karyerada riskin önəmi nə qədərdir? Biznesdə risk nə dərəcədə lazımdır?

- Biznesdə sadəcə ağıllı risk lazımdır. Ən əsası isə, görəcəyin işə inanmalısan. Amma inanıb arxayın olmaq uçuruma aparar. İnanıb çalışmaq lazımdır. Əgər işin alınmayacağına şübhən olsa, onda heç başlamağa ehtiyac yoxdur. Onsuz da batıracaqsan. Özünə və görəcəyin işə inanmalısan. "Düşsəm də, qalxa-

cağam" deyib, uğura köklənməlisən. Əgər "a" planı tutmadısa, "b" planın olacaq. Ağıllı düşündükdə, mütləq çıxış yolu olur.

- 24 yaşınızda özünüzdən yaşca böyüklərə təlimlər keçir, biznes məsləhətləri verirsiniz? Yaşınıza görə sizə inanmayan olubmu?

- Ən çox rastlaşdığım problem yaş problemidir. Avropada, böyük dövlət konfranslarında da belə olur. Hər şey mikrofonu əlinə alıb ağzını açana kimidir. İlk 7 saniyədə adamlar düşünür ki, 24 yaşlı gənc bizə heç bir şey verə bilməz. Hər şey danışıqdan sonra başlayır. Sonuncu təlimdə şöbə müdirləri öz aralarında deyirdilər ki, "aaa, budurmu bizim menecmentdən olan təlimçimiz?" Amma başlayandan sonra hər şey dəyişdi. Çünki bizim verdiyimiz bilgilər bütün şirkətlərdə keçdiyimiz təcrübi bilgilərdir. Biz işçiyə, şirkətə nə lazım olduğunu bilirik və lazım olanı deyirik. O baxımdan adamlar gözlədiklərindən daha artığını alırlar.

- Xarici ölkələrdə azərbaycanlı gəncin təlim keçməyi necə qarşılanır?

- Azərbaycan kimi kiçik ölkədən çıxaraq təlim verən gəncləri təəccüblə qarşılayırlar. Biz 2011-ci ldə "Avropa sahibkarlıq çempionatı"nda iştirak edib, 25 ölkə arasında 6-cı yerə çıxmışdıq. Bu, avropalılar üçün çox təəccüblü idi.

- Uğur sirriniz nədir?

- 2010-cu ilə qədər xaos həyat yaşamışam. Düzdür, işləyib qazanmışam. Amma qazandığımın qədrini bilməmişəm və lazımsız işlərə xərcləmişəm. İnsanları dəyişdirən yenə insanlardır. Mən müəyyən insanlarla söhbət etdikdən sonra, öztimdəki potensialı hiss etdim. İnsan bir an düşünür ki, "sən həyatda nələr edə bilərsən və necə faydalı ola bilərsən?" Məncə, uğurumun sirri hədəflərim, əzmim, məqsədim və faydalı olmağa çalışmağımdır. Mən heç bir yerdə birinci yer tutmamışam. Amalım birincilik olmayıb. Hər dəfə düşünmüşəm ki, işin nəticəsinə köklənmək lazımdır. Hər yerdə birinci olmaq o demək deyil ki, sən biznes həyatında birincisən. İnsanların potensialı uduzanda daha çox üzə çıxır, nəinki irəli gedəndə. Ona görə uduzmaqdan qorxmamışam, əksinə, səhvlərimi görüb stimul almışam.

- Yəni uğur qazanmaq üçün uğursuzluqdan qorxmamaq lazımdır?

- Uğursuzluq həmişə olacaq. Əgər insan bundan nəticə çıxarsa və sona kimi getməyi bacarsa, o, uğur qazanacaq. Sona kimi gedənlər daim qalibdir. 10 dəfə uduzub, ayaq üstə durana qədər çalışan insanlardır uğurlu insanlar. Uğurun ən böyük sirlərindən biri insanın şəxsi keyfiyyətinin yaxşı olmasıdır. Əgər şəxsi keyfiyyətlərin yaxşı deyilsə, nə qədər savadlı olsan da, müəyyən dərəcələrin olsa da, insanlarla ünsiyyət qurub yola gedə bilmirsənsə, uğur qazana bilməyəcəksən. Problemi həll etmək qabiliyyəti, ünsiyyət qurmaq bacarığı olmayan insanın uğuru maksimum 3-4 ay çəkir. 5-ci ayda məğlub olur. Bu problemlərlə başa çıxa bilməyənlər deyir ki, Azərbaycanda işsizlikdir. Azərbaycanda işsizlik problemindən çox, işçisizlik problemi var. Nə qədər iş yerləri var ki, bizdən işçi istəyirlər. Biz öz tələbələrimizi müsahibələrə göndəririk, amma yenə də kifayət etmir. İnsan uğursuzluqdan qorxmamalı və öz üzərində işləməlidir. Şəxsi inkişaf üçün həyatda 8 hədəf növü var ki, onu inkişaf etdirməlisən. Bunlar ailə, hobbi, insanın işi, dostları, ətraf mühit, insanın cəmiyyətə faydası, problemlərin həlli yolunu düşünməsi və insanın cəmiyyətdə roludur.

- Gələcək planlarınız nədir?

- Universitetlərdə böyük layihələr gerçəkləşdirməyə hazırlaşıram. Gələcəkdə Azərbaycanda sahibkarlığın inkişafı ilə bağlı böyük layihələr həyata keçirəcəyik. Çalışırıq Azərbaycanda problemli tələbə və problemli şirkət işçisi qalmasın. Bizim tələbə Avropaya gedəndə, oradakı tələbələrlə rəqabət apara biləcək güdə olmalıdır. Təmiz, şəffaf sahibkarlıq sistemini ölkəyə gətirməyi planlaşdırırıq. Rəqabət olacaqsa, hamı istədiyi mövqedə olacaq, rəqabət olacaqsa, ölkə inkişaf edəcək, ölkə inkişaf edəcəksə, biz inkişaf edəcəyik....

Aygün Əziz

http://kaspi.az/az/3500-telebesi-olan-24-yasli-konsultant-uur-hekayesi/#Kalibri

BİRİNCİLƏR "ƏDƏDLƏR BAYRAMI"NI QEYD ETDİLƏR

Noyabrın 10-da "Dünya" məktəbində I sinif şagirdlərinin "Ədədlər bayramı" qeyd olundu. Ümumiyyətlə, bu gün dünyanın müxtəlif ölkələrinin təhsil ocaqlarında I sinif şagirdlərinin 0-dan 10-a qədər olan ədədləri öyrənməsi "Ədədlər bayramı" kimi keçirilir.

Şagirdlər ədədlər haqqında müxtəlif şeirlər, atalar sözləri, tapmacalar və məsəllər söylədilər. Burada məqsəd şagirdləri məktəb həyatına mümkün qədər tez uyğunlaşdırmaqdır. Təqdimatların bədii, musiqili və səhnələşdirilmiş formada keçirilməsi buna şərait yaradır. Şagirdlər qısa müddət ərzində özlərini ifadə etməklə yanaşı, sərbəst və rahat təhsil aldıqlarını sübut etdilər.





YENİ LAYİHƏYƏ START VERİLDİ

Noyabrın 24-də "Dunya" məktəbinin direktoru Mərufə Mədətova ingilis dili müəllimləri ilə görüş keçirdi. Görüşdə məktəb olimpiadasının keçirilməsi və nəticələrin müəllimlər tərəfindən yoxlanılması, eləcə də, yekun testlərə hazırlıq prosesi ətraflı müzakirə olundu.

İclasda Peşəkar İnkişaf Proqramı (*"Dunya" Professional Development –DDP Centre)* çərçivəsində müəllimlərin peşə hazırlıqlarının artırılması üçün seminar, konfrans və treninqlərin keçirilməsinə qərar verildi. Yalnız "Dünya" məktəbi deyil, digər dövlət və özəl məktəb müəllimlərinin iştirakı nəzərdə tutulan bu layihənin tezliklə Bakı və Sumqayıtdakı "Dünya" məktəblərində həyata keçirilməsi nəzərdə tutulur.




BƏSTƏKAR SƏRDAR FƏRƏCOV İLƏ ÜZ-ÜZƏ









Noyabrın 4-də Xəzər Universitetinin Mərkəz kampusunun "Dünya" konsert salonunda universitetin elm, ədəbiyyat və incəsənət xadimləri ilə görüşlərdən ibarət ənənəvi "Üz - üzə" layihəsi çərçivəsində Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Üzeyir Hacıbəylinin Ev Muzeyinin direktoru, Əməkdar incəsənət xadimi, bəstəkar Sərdar Fərəcov ilə görüş keçirildi. Tədbirdə Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları, Xalq artisti, bəstəkar Arif Məlikov, mədəniyyət və incəsənət xadimləri iştirak edirdilər. Tədbirin aparıcısı musiqişünas Nərgiz Kərimova idi.

Görüş bəstəkarın əsərlərindən ibarət zəngin konsert proqramı və çıxışlardan ibarət idi. Konsertdə Xəzər Universitetinin Kamera orkestri (konsertmeyster Nəsrin Rzayeva), Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, dosent, pianoçu Zülfiyyə Sadıqova, pianoçu-müşayiətçi Sevinç Kərimova, Beynəlxalq müsabiqələr laureatları - skripkaçılar Ümid Mustafayev, Nərgiz Əliyeva, Zərrin Əliyeva, kamançaçı Mədinə Şahgəldiyeva və müğənni Fəridə Məmmədova iştirak edirdilər.











Konsertdə bəstəkarın simli alətlər üçün pyesləri, valsları, skripka və fortepiano üçün əsərləri, romansları ifa olundu. Bəstəkarın Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, şair Hamlet İsaxanlının sözlərinə bəstələdiyi "Uşaqlıqda qalan bulud" və "İstanbul Boğaziçi" romansları müğənni Fəridə Məmmədovanın ifasında ilk dəfə səsləndi.

Çıxış edənlər - musiqişünas, Bəstəkarlar İttifaqının katibi, professor Zemfira Qafarova, teatr və kino rejissoru Rövşən Almuradlı, Qazi Universitetinin (Türkiyə) professoru, Əməkdar incəsənət xadimi, opera rejissoru, professor Əflatun Nemətzadə, Xalq artisti, tarzən Ramiz Quliyev Sərdar Fərəcovun yaradıcılıq xüsusiyyətlərindən ətraflı danışdılar.

Hamlet İsaxanlı çıxış edərək, universitetin "Üz- üzə" layihəsi barədə geniş məlumat verdi, Sərdar Fərəcova universitetin təşəkkürnaməsini və Xəzər Universitetinin müəllimi, rəssam Afaq Kərimovanın çəkdiyi portretini təqdim etdi.

Sonda Sərdar Fərəcov çıxış edərək, Xəzər Universitetinin rəhbərliyinə və iştirakçılara təşəkkürünü bildirdi.

"Üz-üzə" layihəsinin daha bir görüşü uğurla keçdi.













RƏİS RƏSULZADƏNİN 70 İLLİK YUBİLEYİ

Noyabrın 1-də Beynəlxalq Mətbuat Mərkəzində rəssam Rəis Rəsulzadənin 70 illik yubileyi ilə əlaqədar tədbir keçirildi. Tədbirdə R.Rəsulzadənin sənət dostları, tələbələri, tələbə yoldaşları və Xəzər Universitetinin tələbələri, millət vəkilləri, elmi və ədəbi ictimaiyyətin nümayəndələri iştirak edirdilər.

Tədbiri Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, Məhəmməd Əmin Rəsulzadə irsinin tədqiqatçısı, tarix elmləri doktoru Nəsiman Yaqublu açaraq, R. Rəsulzadənin həyat və yaradıcılığı haqqında məlumat verdi, M. Ə. Rəsulzadənin oğlu, Rəisin atası Azər Rəsulzadə ilə görüşündən danışdı.

Millət vəkilləri Rafael Hüseynov, Fazil Mustafa, Vahid Əhmədov rəssamı yubileyi münasibətilə təbrik etdilər, ona uzun ömür, yaradıcılıq uğurları arzuladılar.

Görkəmli dramaturq Cəfər Cabbarlının nəvəsi Qəmər Seyfəddinqızı Məhəmməd Əmin Rəsulzadə ilə Cəfər Cabbarlının ailəvi dostluğundan söhbət açdı.

Tədqiqatçı jurnalist Nəcibə Bağırzadə, Azər Rəsulzadəni Qazaxıstanın Karakanda şəhərində ilk dəfə axtarıb tapan şair Teyyub Qurban tarixi faktlara əsaslanaraq, çıxış etdilər. T. Qurban M. Ə. Rəsulzadəyə həsr etdiyi kitabı R. Rəsulzadəyə hədiyyə verdi.

Tədbirdə, həmçinin, Xəzər Universitetinin tarixçi tələbələri R. Rəsulzadəyə təbriklərini çatdırdılar və ona hədiyyə təqdim etdilər.

Sonda R. Rəsulzadə tədbirin təşkilatçılarına və iştirakçılara öz təşəkkürünü bildirdi.





QALA ARXEOLOJİ-ETNOQRAFİK MÜZEY KOMPLEKSİNƏ EKSKURSİYA

Noyabrın 1-də Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri Roza Arazova və departamentin müəllimi Orxan Zamanovun rəhbərliyi ilə tarix müəllimliyi ixtisası üzrə təhsil alan birinci kurs tələbələri Qala Arxeoloji-Etnoqrafik Müzey Kompleksində ekskursiyada oldular.

Müzey bələdçisi tərəfindən tələbələrə bir çox maraqlı məlumatlar verildi.

Tələbələr əvvəlcə açıq səma altında yerləşən müzeylə və buradakı eksponatlarlarla tanış oldular. Sonra "Əntiq Əşyalar müzeyi" və Qala Qəsrində olan tələbələrə "Müzeydən nə öyrəndik" adlı məşğələ-təqdimat tapşırıldı.

FIRST-YEAR STUDENTS VISIT GALA ARCHEOLOGICAL/ETHNOGRAPHIC MUSEUM COMPLEX

On November 1, as organized by Associate Professor Roza Arazova, Head of the Department of History and Archeology, and instructor Orkhan Zamanov, first-year students of the Department took a field trip to Gala Archeological/ Ethnographic Museum Complex.

The museum guides gave the students interesting information. It was the first time many of the students had been to the museum.

First the students took a tour of the museum and its exhibits, which are located outdoors. Then they visited the Antiques Museum and Gala Castle, and they were given an assignment to present what they had learned from the museum.

XƏBƏR SAYTININ BAKI İLƏ TANIŞLIQ MƏLUMATINDA "XƏZƏR"İN ADI ÇƏKİLİR

Azvision.az xəbər saytı noyabrın 1-də Bakı şəhəri ilə tanışlıq məqsədilə "Bakının gözəlliklərini kəşf etmək üçün ipucu" (Hints to discover beauties of Baku) adlı ingiliscə qısa bir məlumat hazırlamışdır. Məlumatda Bakıdakı öncül təhsil ocaqlarından biri kimi Xəzər Universitetinin də adı çəkilir. Məlumatla yanaşı, Bakının rəmzinə çevrilmiş bir sıra məkanların fotoşəkilləri də yayımlanmışdır.

Bu haqda daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:
http://en.azvision.az/Hints-to-discover-beauties--50851-xeber.html

UĞURLU "START-UP" QURULMASI İLƏ BAĞLI GÖRÜŞ



Noyabrın 1-də İsraildən olan "start-up" mütəxəssisi Tal Catran Xəzər Universitetində universitetin heyəti ilə görüşüb, İsarailin "start-up" təcrübəsini bölüşdü. O, İsrailin bu sahədə uğurlar qazanmasının əsas səbəblərinə toxundu və uğurlu "start-up" qurmağın yolları haqqında fikirlərini söylədi.

Qonağa Xəzər Universitetinin Texnoparkı və digər innovativ ideyalar barəsində məlumat verildi. Görüşdə Xəzər Universitetinin Siyasi elm və beynəlxalq əlaqələr departamentinin müdiri Dr. Muxtar Hacızadə, İnkişaf Mərkəzinin Direktoru Raziyə İsayeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. İnqilab Əhmədov, İqtisadiyyat və menecment departamentinin müdiri Dr. Ceyhun Məmmədov, Neft mühəndisliyi departamentinin müdiri Dr. Qəşəm Zeynalov, İsrail Aerokosmik Sənayesi Mərkəzindən Lina Michaeli və İsarilin Bakıdakı səfirliyinin əməkdaşı Amir Rom iştirak edirdilər.

MEETING ON HOW TO BUILD A THRIVING STARTUP ECOSYSTEM


On November 1, Mr. Tal Catran, an Accelerators Guru and Startups Builder, visited Khazar University to speak with faculty and staff members about Israel's experience with startups. He pointed out the reasons behind Israel's start-up success and shared his ideas on how to build a thriving startup ecosystem.

The guest was also informed about the Technopark and other ideas for innovation at Khazar University. The meeting was attended by Dr. Mukhtar Hajizada, Chair of the Department of Political Science and International Relations; Mrs. Raziya Isayeva, Development Director; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Dr. Jeyhun Mammadov, Chair of the Department of Economics and Management; and Assoc. Prof. Gasham Zeynalov, Chair of the Department of Petroleum Engineering; as well as Mrs. Lina Michaeli from the Israel Aerospace Industries (IAI) and Mr. Amir Rom from the Embassy of Israel in Baku.



XƏZƏR UNİVERSİTETİNDƏ KİTAB YARMARKASI KEÇİRİLDİ





Xəzər Universiteti Tələbə Məclisinin dəstəyi ilə "Qanun" Nəşriyyatı noyabrın 3-dən 8-dək universitetdə kitab yarmarkası keçirdi. Yarmarkada bütün nəşrlərə 20% endirim var idi.

BOOK SALE AT KHAZAR UNIVERSITY

On November 3-8, Qanun Press organized a book table at Khazar University with the support of the Student Union. The book sale was open during class hours and included a 20% discount on all titles.



ƏCNƏBİ TƏLƏBƏLƏR ÜÇÜN ORİYENTASİYA SESSİYASI



Noyabrın 4-də Beynəlxalq əlaqələr şöbəsinin işçi və könüllüləri cari tədris ilində (2016-2017) Xəzər Universitetinə qəbul olunmuş 1-ci kurs əcnəbi bakalavr tələbələri üçün oriyentasiya sessiyası keçirdilər. İştirakçılar Əfqanıstan, Kamerun, Qambiya, İran, İraq və Zimbabvedən olan əyani 1-ci kurs tələbələri, həmçinin, Türkiyədən olan mübadilə proqramı tələbələrindən ibarət idi. Sessiya universitetin "Neftçilər" kampusunda keçirildi.

Beləliklə, tələbələrin universitetin resursları və xidmətləri ilə tanış olmaq, digər əcnəbi tələbələri tanımaq imkanları oldu, onlara Xəzər Universitetində akademik və sosial həyat, Azərbaycan tarixi, yerli mədəniyyət və adətlər, Bakıda keçirilən illik tədbirlər, Azərbaycanda əcnəbilərə aid olan qayda və qanunlar və bir çox başqa mövzularla bağlı məlumat verildi. Hazırkı əcnəbi tələbələr də sessiyada iştirak etdilər və digər əcnəbi tələbələrlə öz təcrübələrini bölüşdülər. Tələbə Məclisi və Kitabxana-İnformasiya Mərkəzinin nümayəndələri də öz resursları, xidmətləri və tələbələrin onlardan necə yararlana biləcəyi haqqında qısa təqdimat keçirdilər.

Yeni bakalavr tələbələrinin sessiya zamanı onlara verilən sualları cavablandıraraq, Xəzər Universitetinin təbliğat materialları və yerli suvenirlərdən ibarət kiçik hədiyyələr qazanmaq şansı oldu.

Bir gün davam edən oriyentasiya sessiyası Xəzər Universitetinin nəzdində fəaliyyət göstərən "Dünya" məktəbində keçirilən ekskursiya ilə başa çatdı. Tələbələr məktəbin işçi heyəti ilə tanış oldular, laboratoriyalar, sinif otaqları, idman kompleksi və digər kampus resurslarında oldular.





ORIENTATION SESSION FOR BACHELOR INTERNATIONAL STUDENTS

On November 4, the International Affairs Office staff and volunteers conducted an orientation session for first year international bachelor students admitted to Khazar University in the current academic year (2016-2017). Participants included new full-time bachelor students from Afghanistan, Cameroon, Gambia, Iran, Iraq, and Zimbabwe, as well as exchange students from Turkey. The orientation session took place on the Neftchilar Campus.

During the orientation session students got an opportunity to learn about the University's resources and services, meet other international students, and learn about the culture of Azerbaijan. Topics covered during the orientation session included but were not limited to: academic and social life at Khazar University, history of Azerbaijan, local culture and traditions, annual events in Baku, rules and regulations concerning foreigners in Azerbaijan, and others. Current international students also participated in the session and shared their experience with their fellow international students. Representatives of Student Union and Library Information Resource Center gave short presentations about their resources and services they provide and how students could benefit from them.

New bachelor students had a chance to win small prizes – promotional materials of Khazar University and local souvenirs – by answering quiz questions throughout the session. Students were challenged by being tested on their knowledge about the history and culture of Azerbaijan.

The one-day orientation session ended with a tour to Khazar University's affiliate, Dunya School. Students were introduced to the school staff and visited laboratories, classrooms, sport complex and other on-campus resources of the school.



"İMTAHANLARA PSİXOLOJİ HAZIRLIQ" MÖVZUSUNDA SEMİNAR

Noyabrın 5-də Xəzər Universiteti Tələbə Məclisinin təşkilatçılığı ilə tələbələrin midterm imtahanlarında daha uğurlu olması üçün tanınmış psixoloq, Psixologiya və Konsultasiya Mərkəzinin rəhbəri Elnur Rüstəmov tərəfindən "İmtahanlara psixoloji hazırlıq" mövzusunda seminar keçirildi.

E. Rüstəmov tələbələrə imtahan zamanının düzgün bölünməsi, diqqətin korreksiyası, motivasiya, həyəcanın aradan qaldırılması, stress, depressiya, təşvişi nevrotik pozuntular haqqında məlumat verdi. Tələbələr də mövzuya aid fikirlərini bildirdilər. E.Rüstəmov Xəzər Universitetinin tələbələri ilə müzakirə aparmağın onun üçün çox xoş olduğunu və gələcək də belə seminarların keçirilməsi lüzumunu qeyd etdi.



XƏZƏR UİVERSİTETİNİN ƏMƏKDAŞI BEYNƏLXALQ KONFRANSDA İŞTİRAK ETDİ

Xəzər Universiteti Dillər və mədəniyyətlər departamentinin müdiri dosent Elnurə Əzizova Türk Tarix Qurumu, Nəcməddin Ərbakan Universiteti, Çukurova Universiteti və İslam Tarixçiləri Dərnəyinin birgə təşkilatçılığı ilə noyabrın 3-dən 5-dək Adanada keçirilən "Beynəlxalq Orta Anadolu və Aralıq dənizi Bəyliklərinin Tarixi, Kültürü və Mədəniyyəti Simpoziumu III – Ramazanoğulları Bəyliyi" adlı beynəlxalq simpoziumda iştirak etmişdir. O, simpoziumda "Fransız səyyahı Bertrandon de La Broquierin gözü ilə XV əsr Anadolu bəyliklərində ictimai-mədəni həyat: Ramazanoğulları nümunəsində" mövzusunda məruzə ilə çıxış etmişdir.

Simpozium müddətində E. Əzizova Türk Tarix Qurumunun rəhbəri professor Refik Turan, İslam Tarixçiləri Dərnəyinin rəhbəri professor Mehmet Şeker və digər elm adamları ilə Türk-İslam tarixinə dair müştərək beynəlxalq tədbirlərin həyata keçirilməsi haqqında fikir mübadiləsi aparmışdır.



DEPARTMENT CHAIR IN INTERNATIONAL CONFERENCE

On November 3-5, Associate Professor Elnura Azizova, Head of the Department of Languages and Civilizations at Khazar University, participated in the III International Symposium of History and Culture of the Anatolia and Mediterranean Region focusing on the Ramazanogullar Beylik which took place in Adana with the joint coordination of Turkish History Board, Najmaddin Arbakan University, Chukurova University and Islamic Historians' Circle. Elnura Azizova made a presentation at the symposium on the topic "Social/Cultural Life in the XV Century Anatolia Beyliks Through the Eyes of French Traveler Bertrandon de La Broquier: The Example of Ramazanoghullar." During the symposium, Dr. Azizova also exchanged opinions with Professor Refik Turan, Head of Turkish History Board; Professor Mehmet Seker, Head of the Islamic Historians' Circle; and others about jointly organizing international events.

"ELM ŞƏNLİYİ" LAYİHƏSİ HAQQINDA XƏBƏR MEDİADA

Youthportal.az xəbər saytı noyabrın 4-də cari ilin dekabrında Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə keçiriləcək "Elm şənliyi" layihəsi haqqında xəbər yaymışdır.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun maliyyə dəstəyi ilə təşkil olunacaq "Elm şənliyi" layihəsi Azərbaycan Milli Elmlər Akademiyasının Arxeologiya və Etnoqrafiya İnstitutu, Xəzər Universiteti və Azərbaycan Arxeoloqlar Cəmiyyəti tərəfindən elmi cəhətdən dəstəklənir.

Xəbəri tam şəkildə bu link vasitəsilə oxumaq olar:
http://youthportal.az/az/news/detail.php?ID=92577





"HÜQUQUNUZU BİLİN!" ADLI TƏLİM

Noyabrın 5-də Xəzər Universiteti Tələbə Məclisinin dəstəyi və AEGEE-Bakının (European Students' Forum) təşkilatçılığı ilə Xəzər Universiteti və digər universitetlərdən olan tələbələrlə insan haqları mövzusunda "Hüququnuzu bilin!" ("Know your rights, now!") adlı təlim keçirildi. AEGEE-Bakı hüquq işçi qrupunun koordinatoru Nicat Məmmədov və təlimçi Xəyyam Namazov tərəfindən planlanan təlim proqramı 5 saat davam etdi. Təcrübəli təlimçi tərəfindən tələbələrə ümumi olaraq hüquq mövzusunda və başqa bir çərçivədən insan haqlarından danışıldı, çox yararlı məlumatlar verildi.

"KNOW YOUR RIGHTS!" SEMINAR

On November 5, a seminar for students of Khazar and other universities entitled "Know your rights, now!" was held with the support of the Khazar University Student Union and AEGEE-Baku, the Baku representation of European Students' Forum. The five-hour seminar was led by Nijat Mammadov, European Students' Forum Baku Legal Working Group Coordinator, and trainer Khayyam Namazov. Students were given useful information about legal issues and general human rights.

QLOBAL MƏLUMAT BAZALARI "XƏZƏR"İN ƏMƏKDAŞLARI ÜÇÜN AÇILDI

2016-cı dekabrın 31-nə qədər yeni "World eBook Library" və "Global eJournal Library" məlumat bazasından istifadə Xəzər Universitetinin bütün əməkdaşları üçün açıqdır.

Dünya İctimai Kitabxanası elektron formatda kitab və məqalələrin dünyada ən böyük toplusudur. Burada 4.000.000 elmi elektron kitab və sənədlər toplusu mövcuddur.

Qlobal eJurnal Kitabxanasının məlumat bazasında 22.000 jurnalda 9.000.000 məqaləyə sərbəst giriş vardır.

GLOBAL DATABASES OPEN TO KHAZAR UNIVERSITY

World eBook Library and The Global eJournal Library are available to Khazar University free of charge for the period of November 7 to December 31, 2016.

World eBook Library is the world's largest collection of books and articles in electronic format. It includes 4,000,000 academic e-books and documents.

The Global eJournal Library database provides open access to 22,000 journals with 9,000,000 articles.

"XƏZƏR"İN ƏMƏKDAŞI BEYNƏLXALQ KONFRANSDA

Noyabrın 2-dən 6-dək Xəzər Universiteti Xəzər Psixoloji Xidmət Mərkəzinin direktoru, Humanitar və sosial elmlər fakültəsinin dekan muavini Mələk Kərimova Türkiyənin Süleyman Dəmirəl Universiteti və Qərbi Macarıstan Universitetinin əməkdaşlığı ilə təşkil edilən 2-ci Sosial Elmlər və Təhsil Tədqiqatları Beynəlxalq Konfransında məruzə ilə çıxış etmişdir. Mələk Kərimova və Xəzər Universiteti Psixologiya departamentinin müəllimi Nərmin Osmanlı Azərbaycanda ilk dəfə Derogatis (1993) tərəfindən hazırlanan və dünyanın bir çox ölkəsində istifadə edilən, psixoloji distress səviyyəsini ölçmək üçün "Qısa Semptom Envanterini" Azərbaycana uyğunlaşdırmışlar. 309 gənç üzərində keçirilən tədqiqatın nəticələri ilə konfransda çıxış edən Mələk Kərimova bu testin adaptasiyasının zəruriliyini də qeyd edərək, ölkələr arası təhlillərə də geniş yer vermişdir.


ICSER

2nd International Conference on Social Sciences and Education Research

CERTIFICATE

This is to certify that

MELEK KERİMOVA

has participated to 2nd International Conference on Social Sciences and Education Research which was held in Istanbul-TURKEY, between 04-06 November 2016, and presented paper titled "THE BRIEF SYMPTOM INVENTORY: A VALIDITY-RELIABILITY STUDY OF A SAMPLE FROM AZERBAIJAN" organized by International Center of Social Sciences & Education Research (ICSER), supported by Suleyman Demirel University (Turkey) and West Hungary University (Hungary)

Assoc. Prof. Dr. Mehmet DEMİR
Chair of ICSER

PSYCHOLOGIAL SERVICES CENTER DIRECTOR IN INTERNATIONAL CONFERENCE

On November 2-6, Melek Karimova, Assistant Dean of the School of Humanities and Social Sciences and Director of the Psychological Service Center at Khazar University, participated in the 2nd International Conference on Social Sciences and Education Research which was held in Istanbul, Turkey. She presented a paper entitled "The Brief Symptom Inventory: A Validity-Reliability Study of a Sample From Azerbaijan." The conference was organized by International Center of Social & Education Research (ICSER) and supported by Suleyman Demirel University (Turkey) and West Hungary University (Hungary).

DÜNYA ROBOT OLİMPİADASI HAQQINDA MƏLUMAT

Noyabrın 8-də Gənclər və İdman Nazirliyinin bir qrup əməkdaşı Xəzər Universitetində Dünya Robot Olimpiadasına hazırlıq üzrə təqdimat keçirdi. Elektronika departamentinin müdiri Nuru Səfərov təqdimatı giriş sözü ilə açaraq, görüşün əhəmiyyətindən danışdı.

Nazirlik əməkdaşları çıxış edərək bildirmişlər ki, olimpiadaların keçirilməsində məqsəd gənclərin İKT və elmi biliklərinin inkişafına dəstək vermək, yaradıcılıq potensialını üzə çıxarmaq və ətrafda mövcud olan problemlərin "robotik" həllərini tapmağa sövq etməkdir.

WORLD ROBOT OLYMPIAD MEETING

On November 8, a group of employees of the Ministry of Youth and Sports gave a presentation with preliminary information about the World Robot Olympiad to be held at Khazar University. Dr. Nuru Safarov, Head of the Department of Electronics, Telecommunications and Radio Engineering, opened the meeting and spoke about its significance. Then the Ministry representatives made speeches noting that the objective of the Olympiad is to support the development of young people in the field of ICT, help them discover their creative potential and teach them to find robotic solutions to problems they encounter.



232 SAYLI TAM ORTA MƏKTƏBDƏ GÖRÜŞ

Noyabrın 8-də Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı Bakı şəhəri Suraxanı rayonuhdakı 232 nömrəli tam orta məktəbdə 9 Noyabr – Dövlət Bayrağı Günü münasibətilə keçirilən tədbirdə iştirak etmişdir. Tədbir "Bayrağım qürurumdur" mövzusunda inşa müsabiqəsi və "Ucal, mənim üçrəngli bayrağım!" adlı rəsm müsabiqəsi qaliblərinin mükafatlandırılmasına həsr olunmuşdu. Müsabiqədə fərqlənən məktəblilərə diplomları İsaxan İsaxanlı təqdim etmişdir.

MEETING IN SCHOOL NUMBER 232

On November 8, Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs of Khazar University, participated in a celebration for November 9- National Flag Day at School number 232 in Surakhani District of Baku. The event included an awards ceremony for the essay contest entitled "My Flag is My Pride" and the drawing contest called "Rise Up, My Three-Colored Flag!" Isakhan Isakhanli distributed certificates to the winning pupils.

ƏMƏKDAŞIMIZ MÜƏLLİFLİK HÜQUQU İLƏ BAĞLI SEMİNARDA

Noyabrın 14-ü və 15-də Xəzər Universitetinin Magistratura, doktorantura və elmi işlər bölməsinin müdiri, fəlsəfə doktoru Eldar Şahgəldiyev Bakıda Müəllif Hüquqları Agentliyi (MHA), Təhsil

Nazirliyi, Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi və Ümumdünya Əqli Mülkiyyət Təşkilatının (ÜƏMT) əməkdaşlığı çərçivəsində "Universitetlərdə, elmi-tədqiqat və təcrübi-konstruktor müəssisələrində əqli mülkiyyət siyasəti və elmi-tədqiqat fəaliyyəti" mövzusunda beynəlxalq seminarda iştirak etmişdir.

Seminarda ÜƏMT-nin keçid iqtisadiyyatlı və inkişaf etmiş ölkələr departamentinin müdiri Mixal Svantner, Avropa patent müvəkkili, ActoGenix NV şirkətinin sabiq təsisçisi və baş konsulu Emil Pot, ÜƏMT-in məsləhətçisi Mohammad Alhabbal, Polşanın Yagellon Universitetinin dosenti Dariuş Kasprzycki, həmçinin, yerli dövlət orqanları və təhsil müəssisələrinin nümayəndələri məruzələrlə çıxış etmişlər.

KHAZAR JOURNAL OF HUMANITIES AND SOCIAL SCIENCES JURNALI BEYNƏLXALQ MÜKAFATA LAYİQ GÖRÜLDÜ



Noyabrın 8-də Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondunun və dünyanın tanınmış akademik nəşriyyatlarından olan "Thomson Reuters" şirkətinin birgə təşkilatçılığı ilə Azərbaycan elmi ictimaiyyəti üçün nəzərdə tutulan "Web of Science-2016" mükafatlarının təqdimetmə mərasimi keçirildi. Xəzər Universitetini bu tədbirdə universitetin İdarəetmə və tələbə işləri üzrə prorektoru İsaxan İsaxanlı və Khazar Journal of Humanities and Social Sciences ("Xəzər humanitar və sosial elmlər jurnalının redaktor müavini Xəyalə Məmmədova təmsil edirdilər.

Mükafatçıların siyahısı təbiət elmləri, sosial və humanitar elmlər sahəsində elmin aparıcı platforması olan "Web of Science" bazasının əsasında tərtib edilmişdir. Analiz "Thomson Reuters" və Elmin İnkişafı Fondu ilə əməkdaşlıq edən elmi tədqiqatlar və əqli mülkiyyət bölməsindən olan ekspertlər tərəfindən aparılmışdır.

"Thomson Reuters" şirkətinin elmi tədqiqatlar və əqli mülkiyyət departamentinin direktoru Oleq Utkin Bakıda elmi ictimaiyyətin nümayəndələri ilə keçirilən görüşün təmsil etdiyi qurum üçün böyük əhəmiyyət daşıdığını söylədi.

Sonra ən məhsuldar qurum, nüfuzlu elmi jurnal və alimlər mükafatlandırıldılar.

"Thomson Reuters" şirkəti və Azərbaycan Respublikasının Prezidenti yanında Elmin İnkişafı Fondu nominasiyalar üzrə mükafatları sahiblərinə təqdim etdilər. Xəzər Universitetində nəşr olunan Khazar Journal of Humanities and Social Sciences ("Xəzər Humanitar və Sosial Elmlər jurnalı") "Yeni elm şəbəkəsi (Web of Science) nominasiyası üzrə mükafata layiq görüldü.

Mükafatlandırma mərasimindən sonra Azərbaycanda nəşr olunan elmi jurnalların redaktor və redaktor müavinləri üçün "Thomson Reuters" və Elmin İnkişafı Fondunun birgə təşkilatçılığı ilə elm və əqli mülkiyyət üzrə aparıcı mütəxəssislər tərəfindən "Azərbaycanın elmi jurnalları: beynəlxalq səviyyəyə doğru irəliləyiş" mövzusunda seminar-təlim keçirildi.

Khazar Journal of Humanities and Social Sciences Receives International Award

On November 8, the Web of Science 2016 Awards Ceremony for the Azerbaijani scientific community was held with the joint coordination of the Science Development Foundation of the

President of the Azerbaijan Republic and Thomson Reuters. Khazar University was represented at the event by Dr. Isakhan Isakhanli, Vice President for Administration and Student Affairs, and Khayala Mammadova, Assistant Editor of Khazar Journal of Humanities and Social Sciences.

The list of award winners was determined based on Web of Science, the leading platform in natural sciences, social sciences and humanities. Analysis was performed by experts in scientific research and intellectual property from Thomson Reuters and the Science Development Foundation.

Awards were presented by representatives from Thomson Reuters and the Science Development Foundation. The Khazar Journal of Humanities and Social Sciences published by Khazar University won an award for the category of "New Web of Science Journal."

The Executive Director of the Science Development Foundation congratulated all the winners and wished them success in their endeavors towards the development of science in Azerbaijan. He noted that he was confident that these journals would achieve even greater accomplishments in this field in the future.



"XƏZƏR"İN ƏMƏKDAŞININ MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi dosent Elmira Məmmədova-Kekeçin "Kaygusuz Abdalın "Vücudnamə" risaləsində varlıq və yaradılış problemində Sufi azadlığı" ("Sufi release of being and creation problem in Kaykisiz Abdal's tractate "Vudjudname") adlı məqaləsi Qafqaz Universitetinin Fəlsəfə və pedaqogika beynəlxalq elmi jurnalında çapdan çıxmışdır. Jurnal elektron kitab şəklində çap olunub.

KHAZAR INSTRUCTOR PUBLISHES ARTICLE

Associate Professor Elmira Mammadova-Kekechin, instructor of the Department of Azerbaijani Language and Literature, published an article on "Sufi release of being and creation problem in Kaykisiz Abdal's tractate 'Vudjudname'" in Qafqaz University's Philosophy and Pedagogy Journal. This international scholarly journal is published electronically.

"ELEKTRON RESURSLARDAN AXTARIŞ ÜSULLARI" MÖVZUSUNDA SEMİNAR

Noyabrın 14-də Xəzər Universitetində tədqiqat seminarı (Research seminar/Journal Club) keçirildi. Seminarın birinci hissəsində KİM-nin Elektron informasiya xidmətləri bölməsinin müdiri Səidə Orucova Biologiya departamentinin doktorantları, tədqiqatçıları və müəllimləri üçün "Elektron resurslardan axtarış üsulları" mövzusunda növbəti təlimi keçirdi. Təlim elektron kataloq, onlayn verilənlər bazası və DSpace –elektron arxiv və bu resurslardan istifadə qaydalarına həsr olunmuşdu. Təlimin birinci hissəsində iştirakçılar bu resurslarla tanış oldular, ikinci hissəsində isə artıq əldə etdikləri məlumatlardan istifadə edərək, tapşırıqları yerinə yetirdilər.

Sonra Bioloji elmlər departamentinin doktorantı Pərvanə Baxşəliyeva Azərbaycanda və qonşu ölkələrdə yeni doğulmuşlar arasında fenilketonuriyanın mütasiyalarının genetik xüsusiyyətlərinin araşdırılması haqqında bir neçə məqaləni müqayisəli təhlil etdi.

Bundan sonra Bioloji elmlər departamentinin müdiri və Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin rəhbəri, fəlsəfə doktoru İradə Xəlilova Avropanın "Cystic Fibrosis" jurnalında çapa qəbul edilən "Oksidləşmiş qlütation və sidik turşusu ağ ciyərin erkən kistik fibroz xəstəliyinin biomarkeri kimi" ("Oxidized glutathione and uric acid as biomarkers of early cystic fibrosis lung disease") məqaləsini təqdim etdi və məqalədə təqdim edilən nəticələrin kistik fibroz xəstəliyinin erkən diaqnostikasında əhəmiyyətini qeyd etdi. Beləlilə, seminarda geniş müzakirələr aparıldı və yekunda növbəti seminar üçün digər doktorant tələbələrin iştirakı planlaşdırıldı.

"XƏZƏR"İN MÜƏLLİMİ BEYNƏLXALQ ELMİ KONFRANSDA MƏRUZƏ

Noyabrın 14-15-də Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Reyhan Mədətova AMEA-da keçrilən "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda Beynəlxalq elmi konfransda iştirak etmişdir. O, konfransda "Orta əsr yazılı abidələrində məsdərin arxaik xüsusiyyətlərinin dialekt və şivələrimizdə qalıqları" mövzusunda məruzə ilə çıxış etmişdir.

Konfransın sonunda müəllimimiz iştirakçı sertifikatı almışdır



TƏLƏBƏLƏR UNDP-AZƏRBAYCANIN TƏLİMİNDƏ

Noyabrın 14-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə bir qrup tələbəmiz UNDP-Azərbaycanın dəstəklədiyi təlimdə iştirak etdilər. Təlimi professor Pasquale Lucio Scandizzo (Roma Universiteti) aparırdı. Təlim "Ekosistem xidmətlərinin qiymətləndirilməsi üçün şərti qiymətləndirmə üsulu" mövzusuna həsr olunmuşdu.

STUDENTS PARTICIPATE IN UNDP TRAINING

On November 14, 20 students from the Khazar University Department of Geography and Environment participated in a training supported by UNDP Azerbaijan. The training was led by Professor Pasquale Lucio Scandizzo (University of Rome). The training covered "Contingent Valuation Method for Assessment of Ecosystem Services."

İTALİYAN PROFESSOR TƏLƏBƏLƏRƏ MÜHAZİRƏ OXUDU

Noyabrın 15-də professor Pasquale Lucio Scandizzo (Roma Universiteti) Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentində su ehtiyatlarının kompleks idarə olunması dərsində "Ekosistem xidmətləri üçün ödəmələr su ehtiyatlarının kompleks idarə olunması vasitəsi kimi" mövzusunda mühazirə oxudu.

ITALIAN PROFESSOR GIVES GUEST LECTURE

On November 15, Professor Pasquale Lucio Scandizzo (University of Rome) visited Khazar University's Department of Geography and Environment and gave a guest lecture for the Integrated Water Resources Management (IRWM) class on "Payment for Ecosystem Services as a tool for IWRM."



FİNLANDİYANIN NOVİA TƏTBİQİ ELMLƏR UNİVERSİTETİNİN REKTORU XƏZƏR UNİVERSİTETİNDƏ

Noyabrın 15-də Finlandiyanın Novia Tətbiqi Elmlər Universitetinin rektoru Dr. Örjan Anderssonun rəhbərlik etdiyi nümayəndə heyəti Xəzər Universitetində olub, universitetin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı ilə görüşdü. Görüşdə Azərbaycan Respublikasının Təshil Nazirliyinin dəstəklədiyi Tvinninqs lahiyəsi müzakirə olundu.

Görüşdə universitetin Akademik işlər üzrə prorektoru Məhəmməd Nuriyev, İqtisadiyyat və menecment fakültəsinin dekanı İnqilab Əhmədov, Humanitar və sosial elmlər fakültəsinin dekanı Cabir Xəlilov, İnkişaf direktoru Raziyə İsayeva da iştirak etdilər

RECTOR OF NOVIA UNIVERSITY OF APPLIED SCIENCES (FINLAND) VISITS KHAZAR

On November 15, 2016, a delegation led by Dr. Örjan Andersson, the rector of Novia University of Applied Sciences in Finland, visited Khazar University and met with Professor Hamlet Isaxanli, the founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, to discuss the Twinning Project supported by the Ministry of Education of the Azerbaijan Republic.

Other participants in the meeting included Professor Mahammad Nuriyev, Vice President of Khazar University for Academic Affairs; Dr. Ingilab Ahmadov, Dean of the School of Economics and Management; Associate Professor Jabir Khalilov, Dean of the School of Humanities and Social Sciences; and Raziya Isayeva, Development Director.

TƏLƏBƏLƏRİMİZ BEYNƏLXALQ ELMİ KONFRANSDA

Noyabrın 14-15-də Təhsil Nazirliyi, Mədəniyyət və Turizm Nazirliyi, AMEA Rəyasət Heyəti, AMEA Nəsimi adına Dilçilik, Nizami adına Ədəbiyyat və akademik Z.Bünyadov adına Şərqşünaslıq institutlarının birgə təşkilatçılığı ilə Ədəbiyyat İnstitutunun Elektron zalında I Türkoloji Qurultayın 90 illiyinə həsr olunmuş "Türkoloji elmi-mədəni hərəkatda ortaq dəyərlər və yeni çağırışlar" mövzusunda beynəlxalq konfrans keçirildi.

Xəzər Universitetinin "Türk xalqları ədəbiyyatı" fənnini tədris edən müəllimi dosent Elmira Məmmədova-Kekecin rəhbərliyi ilə Təhsil fakültəsinin tələbələri Ema Niftəliyeva, Sevda Fərəcova, Xatirə Ağayeva, İlahə Qasımzadə, Nizami Əlisoy "Türkologiya" jurnalının konfrans çərçivəsində təşkil etdiyi dəyirmi masanın fəal üzvlərinə çevrildilər. Dəyirmi masa jurnalın baş redaktoru akademik Kamal Abdullayevin sədrliyi ilə keçirildi. Tədbirdə tələbələr Azərbaycan və xarici ölkələrin görkəmli alimləri ilə tanış oldular. Əhməd Bican Ercilasun, Osman Fikri Sərtqaya, Fikrət Türkmən, Ramazan Qorxmaz, Ramil Valeyev, Ramiz Əsgər, Mehman Musaoğlu, Muxtar İmanov, Elbrus Əzizov kimi türkoloq alimlər tələbələrin suallarını cavablandırdılar.

"Türkologiya" jurnalının redaksiya heyəti tərəfindən tələbələrimizin aktiv iştirakı yüksək dəyərləndirildi, gələcəkdə də bu səpkidə seminar və görüşlərin keçirilməsi qərara alındı.

MÜƏLLİMİMİZ BEYNƏLXALQ TOLERANTLIQ GÜNÜNƏ HƏSR OLUNMUŞ SEMİNARDA

Noyabrın 16-da Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi, fəlsəfə doktoru Xatirə Yusifova Azərbaycan Memarlıq və İnşaat Universitetində Beynəlxalq Tolerantlıq Gününə həsr olunmuş seminarda "Bəşəri düşüncə" adlı məruzə ilə çıxış etmişdir.

KHAZAR UNIVERSITY INSTRUCTOR AT INTERNATIONAL TOLERANCE DAY SEMINAR

On November 16, Dr. Khatira Yusifova, instructor of Khazar University Department of Azerbaijani Language and Literature, participated in a seminar for International Tolerance Day at Azerbaijan University of Architecture and Construction (AUAC). She presented an article on "Humanist Thought."





ƏRZURUM ATATÜRK UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ ƏLAQƏLƏRİ GENİŞLƏNİR

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov, universitetin Tibb fakültəsinin dekanı, dosent Elsevər Əsədov və 2 nəfər fakültə əməkdaşı oktyabrın son günlərində Türkiyə Respublikasının Ərzurum Atatürk Universitetində işgüzar səfərdə olublar.

Səfər çərçivəsində Ərzurum Atatürk Universitetinin rektoru, professor doktor Ömer Çomaklı və rektorluq nümayəndələrinin iştirakı ilə görüş keçirilib. Ömer Çomaklı qonaqları səmimi salamlayaraq qeyd edib ki, 20 fakültə, 7 institut və 10-a yaxın yüksək peşə məktəbinin fəaliyyət göstərdiyi, on minlərlə tələbənin təhsil aldığı Ərzurum Atatürk Universitetinin beynəlxalq əlaqələrində Azərbaycan ali məktəblərinin, o cümlədən Naxçıvan Dövlət Universitetinin özünəməxsus yeri vardır və əməkdaşlığın inkişaf etdirilməsi bundan sonra da diqqət mərkəzində saxlanılacaq.

Naxçıvan Dövlət Universitetinin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov bildirilib ki, Naxçıvan Dövlət Universiteti ilə Türkiyə universitetləri arasında əməkdaşlıq iki qardaş ölkənin dostluq və qardaşlıq münasibətləri sayəsində uğurla davam etdirilir. Naxçıvan Dövlət Universitetinin Türkiyə Cümhuriyyətinin 40-dan çox ali təhsil ocağı ilə əlaqələrinin təməli 1992-ci ildə Ərzurum Atatürk Universiteti ilə əməkdaşlıq vasitəsilə qoyulub. Universitetlərarası əməkdaşlıq müqaviləsinə əsasən elm və təhsilin inkişafı istiqamətində müştərək əhəmiyyətli addımlar atılmaqdadır. Naxçıvan Dövlət Universiteti Tibb fakültəsinin və Baytarlıq təbabəti ixtisasının tələbələri müxtəlif vaxtlarda Ərzurum Atatürk Universitetində təcrübədə olublar, müştərək konfranslar keçirilib.

Səfər zamanı iki universitet arasında beşillik əməkdaşlıq memorandumu imzalanıb. Elm, mədəniyyət və sosial sahədə birgə fəaliyyəti və ortaq fikri inkişaf etdirmək məqsədi daşıyan memorandumda tələbə, akademik və idarə heyətinin mübadiləsini həyata keçirmək, müştərək elmi-tədqiqat layihələrini, simpozium, konfrans və digər elmi-sosial, mədəni tədbirləri gerçəkləşdirmək nəzərdə tutulub. Memorandumda Naxçıvan Dövlət Universitetinin Tibb ixtisasının müəllim və tələbələrinin Ərzurum Atatürk Universitetində təcrübə keçirilməsi ilə bağlı ayrıca maddə öz əksini tapıb.

Səfər zamanı Ərzurum Atatürk Universitetində tibb təhsilinin səviyyəsi, əczaçılıq, stomatologiya və digər tibb profilli fakültələrdəki tədris prosesi ilə tanışlıq olub, 2000-ə yaxın tibbi personalın xidmət göstərdiyi 1400 çarpayılıq xəstəxanada yaradılan şərait, burada aparılan müasir tibbi-diaqnostik müayinə və əməliyyatlar, fəaliyyət göstərən tibb mərkəzləri qonaqlarda maraq doğurub.

UNİVERSİTET MÜƏLLİMLƏRİ MÜKAFATA LAYİQ GÖRÜLÜB



Naxçıvan Dövlət Universitetinin bir qrup müəllimi "Avropa Nəşr Mətbuat Evi"nin təsis etdiyi mükafatlarla təltif olunub. Bu münasibətlə noyabrın 4-də keçirilən tədbiri giriş sözü ilə universitetin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov açaraq, Azərbaycanda elm və təhsil sahəsində qazanılan uğurlardan danışıb, muxtar respublikada elmi-pedaqoji kadrların fəaliyyətinə yaradılan hərtərəfli şəraitdən, onlara göstərilən diqqət və qayğıdan bəhs edib. Qeyd olunub ki, hazırda universitetdə Azərbaycan Milli Elmlər Akademiyasının 2 həqiqi, 7 müxbir üzvü, 31elmlər doktoru, 175 fəlsəfə doktoru fəaliyyət göstərir. Gənc dissertant və doktorantlar elmin müxtəlif istiqamətləri üzrə uğurlu elmi tədqiqat aparırlar. Yarım əsrlik tarixə malik, Azərbaycan ali təhsil məkanında özünəməxsus yeri olan universitetin müəllim-professor heyətinin qazandığı uğurlar yüksək mükafatlarla qiymətləndirilir.

"Avropa Nəşr Mətbuat Evi"nin direktoru Şöhrət Səlimbəyli rəhbərlik etdiyi qurumun fəaliyyəti, təsis etdikləri mükafatların Azərbaycan mədəniyyəti, incəsənəti, elmi sahəsində xidmətəri olan şəxslərə verilməsi haqqında danışıb.

Sonra "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı və fəxri diplomunun təqdimat mərasimi keçirilib. "Avropa Nəşr Mətbu Evi" Müsabiqə komissiyasının qərarı ilə Naxçıvan Dövlət Universitetinin Memarlıq və mühəndislik fakültəsinin dekanı, texnika üzrə elmlər doktoru Cavanşir Zeynalov, İqtisadiyyat fakültəsinin dekanı, dosent Mehdi Bağırov, Sosial idarəetmə və hüquq fakültəsinin dekanı, dosent Qərib Allahverdiyev milli mənəvi dəyərlərimizin qorunması və gənclərdə vətənpərvərlik hisslərinin aşılanmasında, istedadlı gənc alimlərin hazırlanmasındakı səmərəli fəaliyyətlərinə, uğurlu tədqiqatlarına, çoxsaylı elmi-publisistik kitablarına, dərs vəsaitlərinə görə bu mükafata layiq görülüblər.

Universitetin İqtisadiyyat kafedrasının müdiri, iqtisad elmləri doktoru, professor Ağarza Rüstəmov isə ictimai, elmi-pedaqoji fəaliyyətinə, gənc alim kadrların hazırlanması işindəki uğurlarına görə "Avropa Nəşr Mətbuat Evi" tərəfindən Həsən bəy Zərdabi "Qızıl Qələm" mükafatı ilə təltif olunub. Xatırladaq ki, professor Ağarza Rüstəmov 2015-ci ildə adı çəkilən qurumun "Ən yaxşı vətənpərvər tədqiqatçı alim" qızıl medalı və diplomuna layiq görülüb.

Təltif olunanlar çıxış edərək minnətdarlıq ediblər.

Mehriban Sultan,
NDU-nun Mətbuat şöbəsinin müdiri

"XƏZƏR"İN TƏLƏBƏLƏRİ SOSİAL LAYİHƏNİN ÇƏKİLİŞİNDƏ

Noyabrın 17-də Xəzər Universitetinin xarici tələbələri Azərbaycanda multikulturalizm mövzusuna həsr olunan sosial reklamın çəkilişində iştirak etdilər.

İctimai televiziya kanalının apardığı bu çəkilişdə tələbələr Azərbaycanda mədəniyyət, ənənələr haqqında təəssüratlarını bölüşdülər, həm də öz mədəniyyətləri haqqında qısa məlumat verdilər. Çəkilən kadrın mahiyyəti dünyada bütün insanları birbirinə münasibətdə tolerant, dünyanı daha sülhsevər olmağa çağırmaq idi.

Çəkilişdə Əfqanıstan, Qambiya, İran, İraq, Pakistan, Fələstin, Türkiyə, Yəmən və Zimbabvedən olan tələbələr iştirak etdilər.

Multikulturalizm ili ilə əlaqədar hazırlanan bu sosial reklam Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun layihəsidir

INTERNATIONAL STUDENTS PARTICIPATE IN FILMING SOCIAL AD

On November 17, international students of Khazar University participated in a shooting of a social ad about multiculturalism in Azerbaijan.

During the shooting, which was run by Public TV, the international students shared their experiences about people, culture, and traditions in Azerbaijan. They also give short information about themselves and their culture. The essence of their message was to invite people all around the world to show tolerance for one another and make the world a peaceful place to live in.

Participants included students from Afghanistan, Gambia, Iran, Iraq, Pakistan, Palestine, Turkey, Yemen and Zimbabwe.

This social ad is a project of the Youth Fund under the President of the Republic of Azerbaijan in a connection with a year of multiculturalism.

XƏZƏR UNİVERSİTETİNDƏ "İKİ ŞƏHƏRİN ƏFSANƏLƏRİ" ADLI TƏDBİR KEÇİRİLDİ

Noyabrın 18-də Xəzər Universitetində "İki şəhərin əfsanələri" adlı tədbir keçirildi. Tədbir universitetin Kitabxana-İnformasiya Mərkəzində yerləşən "Çin guşəsi"nin layihə rəhbəri Səidə Orucova və koordinatoru Esmira Mehdiyeva tərəfindən hazırlanmışdı.

Tədbirdə BDU-nin nəznindəki Konfusiya İnstitutunun müəllimləri, Xəzər Universitetində Çin dilini öyrənən tələbələr və digər qonaqlar iştrak edirdilər. Konfusiya İnstitutunun müəllimləri Pekinin tarixi, mədəniyyəti, abidələri, Pekin Operası, milli yeməklər haqqında təqdimatla çıxış etdilər. Xəzər Universitetinin tələbələri isə Bakı, İçərişəhər, Qız qalası, yeni salınmış binalar və muzeylər haqqında təqdimat nümayiş etdirdilər. Daha sonra, Çin xalq və Azərbaycan milli geyimləri nümayiş edildi. Çin dili müəllimi tədbir iştrakçılarının adlarını kalliqrafiyada yazıb hədiyyə etdi.

LEGENDS OF TWO CITIES EVENT AT KHAZAR UNIVERSITY

On November 18, an event entitled "Legends of Two Cities" took place at Khazar University. Library and Information Center staff members Saida Orujova (China Corner project manager) and Esmira Mehdiyeva (coordinator) are the event coordinators. Participants in the event included instructors from Baku State University's affiliated Confucius Institute, Khazar University students learning Chinese, and other guests. During the event, Confucius Institute instructors gave the audience information about the history and culture of Beijing, national foods, the Beijing Opera, and other tourist attractions. In turn, Khazar University students made presentations about Baku's Old City, Maiden's Tower, newly-constructed buildings, and museums. Then Chinese and Azerbaijani national clothing styles were shown. Chinese language teachers wrote the names of participants in calligraphy as gifts.

"ƏSA" TEATRI PREMYERASINI "XƏZƏR"DƏ KEÇİRDİ

Noyabrın 20-də "ƏSA" teatrı Xəzər Universitetinin "Dünya" konsert salonunda "DUMB Mərhələsinin Əsası" tamaşasının premyerasını keçirdi.

Tamaşada Fərid Kazakov, Orxan Adıgözəl, Murad Məmmədov, Elvin Mirzəyev və Nihad Qulamzadə iştirak edirdilər.

Xatırladaq ki, "ƏSA" teatrı 2016-cı il sentyabrın 3-də yaranıb və əlilliyi olan aktyorlardan ibarətdir.

Bu haqda bir sıra media orqanları xəbər yaymışlar:

http://metbuat.az/news/570278/elilliyi-olan-genclerin-ilk-teatr-tamasasi.html;

http://cia.az/news-view/59678-Yeni-nesil-ezilib?---Alimlere-cavab;

https://report.az/multimedia/elilliyi-olan-genclerin-ilk-teatr-tamasasi/;







P2P EKSTREMİZMƏ QARŞI LAYİHƏSİNDƏ XƏZƏR UNİVERSİTETİNİN "SÜLH ÜÇÜN" KOMANDASI

Cari tədris ilində Xəzər Universiteti ABŞ Dövlət Departamenti tərəfindən dəstəklənən *Peer to Peer* (P2P) layihəsinin "Ekstremizmə qarşı Mübarizə Proqramı"nda ikinci dəfə iştirak edir.

Universitetin İqtisadiyyat və menecment fakültəsinin 8 nəfər yerli və xarici tələbədən (Mohanad Abuhashish, Alex Takamgang Wose, Justin Berinyuy Bongwong, Aysu Cəbrayılova, Svetlana Hacıyeva, Bəylər Haqverdi, Həsən Əlili, Tamella Mahmudzadə) ibarət olan "Sülh üçün" komandasının rəhbəri marketinq fənnini tədris edən Ləman Qayidovadır.

Komandanın məqsədi ekstremizmə qarşı mübarizədə fəal iştirakı təbliğ etməkdir. Komandanın facebook səhifəsi ilə bu linkdə tanış ola bilərsiniz:

https://www.facebook.com/challengeextremismforpeace/?fref=ts

Qeyd edək ki, 2016-cı ilin yazında "İmagine" komandası eyni layihədə Xəzər Universitetini təmsil edərək, 3-cü yer tutdu. Bununla onlar ABŞ-a səfər edib münsiflərin qarşısında hazırladıqları təqdimatı keçirmək imkanı qazanmışdılar.

P2P: CHALLENGING EXTREMISM PROGRAM - MEET 'FOR PEACE' TEAM OF KHAZAR UNIVERSITY

This academic year Khazar University participates in P2P: Challenging Extremism program, a global university youth initiative and an international competition supported by the U.S. Department of States, for the second time.

The team "For Peace" is comprised of both local and international students of the School of Economics and Management of Khazar University and is led by Ms. Laman Gayidova, marketing instructor, and includes eight students: Mohanad Abuhashish, Alex Takamgang Wose, Justin Berinyuy Bongwong, Aysu Jabraayilova, Svetlana Haciyeva, Baylar Hagverdi, Hasan Alili, Tamella Mahmudzada.

The team's goal is to promote active participation in the fight against extremism. They connect to the world through solidarity for society's misery through feelings of sensuality and intimacy. They say: "We share our passion for society with our hearts and not egoistic vanity, we share through the mind. We stand for narratives for change, storytelling for goodwill through our films that shall cast characters and roles in settings with elements of exposure and the way the narrative logic unfolds with a language of authenticity for change with voices, metaphors, and symbols for peace."

Team's Facebook page:

https://www.facebook.com/challengeextremismforpeace/?fref=ts

Team Imagine represented Khazar University in the program this spring and earned third place. They had a chance to visit the United States and present their project to a jury.

"XƏZƏR"İN ƏMƏKDAŞININ MƏQALƏSİ "ELSEVIER"-DƏ

Xəzər Universiteti Təhsil fakültəsinin Bioloji elmlər departamentinin müdiri, Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin direktoru Dr. İradə Xəlilovanın Avropanın Kistik Fibroz Jurnalında – Elsevier-də (*Elsevier –European Journal of Cystic Fibrosis, İmpact Factor –3.853*) elmi məqaləsi yayımlanmışdır. Məqaləni bu linkdə oxumaq olar:

http://www.cysticfibrosisjournal.com/article/S1569-1993(16)30647-6/abstract

KHAZAR FACULTY MEMBER PUBLISHES IN ELSEVIER

An article by Dr. Irada Khalilova, Head of the Biology Department and Director of the Cell Pathology Research Center at Khazar University, has been published in *European Journal of Cystic Fibrosis* by Elsevier (impact factor 3.853). The abstract of the article is available at this link:

http://www.cysticfibrosisjournal.com/article/S1569-1993(16)30647-6/abstract.



XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ "BRİTANİYA UNİVERSİTETLƏRİ İLƏ ƏMƏKDAŞLIQ" TƏDBİRİNDƏ İŞTİRAK ETDİLƏR

Oktyabrın 24-də Xəzər Universitetinin nümayəndələri British Council Azərbaycan tərəfindən təşkil olunuş "Britaniya universitetləri ilə əməkdaşlıq" tədbirində iştirak etdilər.

Tədbir British Council-ın Azərbaycan üzrə direktoru, Təhsil Nazirliyinin nümayəndələri və Erasmus+ proqramının Azərbaycan üzrə nümayəndəliyinin rəhbərinin açılış nitqi ilə başladı. Sonra yeddi universitet təklif etdiyi proqramlar və Azərbaycanda əməkdaşlıq maraqları və prioritetləri haqqında qısa təqdimatla çıxış etdi. Təqdimatlardan sonra Britaniya universitetləri nümayəndələrinin yerli universitetləri təmsil edən nümayəndələrlə üzbəüz görüşmək imkanları oldu.

Xəzər universiteti İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva və Beynəlxalq əlaqələr şöbəsinin direktoru Turan Cəfərova tədbirdə iştirak etdilər.

REPRESENTATIVES OF KHAZAR UNIVERSITY PARTICIPATE IN "NETWORKING WITH UK UNIVERSITIES" EVENT

On October 24, representatives of Khazar University participated in the Networking with UK Universities event organized by the British Council (BC) of Azerbaijan.

The event started with welcoming remarks by the BC Azerbaijan director, representative of the Ministry of Education, and head of the National Erasmus Plus Office in Azerbaijan. Seven universities gave brief presentations about their programs, partnership interests and priorities in Azerbaijan. The presentations were followed by the networking itself during which UK university representatives had an opportunity to meet face-to-face with the representatives of local universities.

Mrs. Raziya Isayeva, Development Director, and Ms. Turan Jafarova, Director of the International Affairs Office, represented Khazar University at the event.



XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI BEYNƏLXALQ TƏDBİRDƏ ÇIXIŞ ETDİ

Oktyabrın 25-26-da Birləşmiş Ərəb Əmirliyinin Şarjah Amerika Universitetində sülh yaratmaq və konfliktə qarşı idarəçilik sisteminin qurulması məqsədilə "Biznes Sülh Forumu-2016" adlı tədbir təşkil olunmuşdu. Tədbirə bu sahədə araşdırma aparan ali təhsil ocaqlarının nümayəndələri, akademiklər, beynəlxalq təşkilatların nümayəndələri və QHT-lər rəsmi dəvət olunmuşdular. Tədbirin missiyası sülh üçün çoxlu innovativ əməkdaşlıq imkanları əldə etmək, biznes sülh cəmiyyətini genişləndirmək və gücləndirməkdən ibarət idi. Həmçinin, konfransda sosial-iqtisadi yenidənqurma, siyasi çərçivə, razılaşma və ədalət, münaqişə üçün həssas davranış və s. adlı panellər təşkil olunaraq, geniş müzakirələr aparılmışdır.

Xəzər Universitetinin əməkdaşı Xəyalə Məmmədova Azərbaycanı tədbirdə uğurla təmsil etmişdir. Bundan başqa, o, Şarjah Amerika Universitetinin rəhbəri Dr.Bjorn Kjervelə və Dubay Universitetinin rəsmisi Dr. Yaprak Anadol ilə elmi inkişaf, elmi nəşrlər haqqında, elm və biznes üçün önəmli olan elmi bazalar haqqında əməkdaşlıqla bağlı geniş müzakirələr aparmışdır.

KHAZAR UNIVERSITY STAFF MEMBER AT INTERNATIONAL EVENT

On October 25-26, Business Peace Forum 2016 took place in Dubai, UAE at Sharjah American University with the goal of creating a management system to create peace and avoid conflict. Official guests at the event included representatives of higher education institutions carrying out research in this field, academics, and representatives of international organizations and NGOs. The mission of the event was to create opportunities for innovative partnership towards peace as well as to build and strengthen a peaceful business society. The conference also included panel sessions about socioeconomic reform, political change, agreement and justice, sensitivity to conflict and more.

Khayala Mammadova, staff member of Khazar University, represented Azerbaijan at the event. She also held discussions about academic development, scholarly journals, and academic databases important to science and business with Dr. Bjorn Kjervele, leader of Sharjah American University, as well as Dr. Yaprak Anadol, administrator of Dubai University.

XƏZƏR UNİVERSİTETİ BEYNƏLXALQ ƏMƏKDAŞLIĞINI GENİŞLƏNDİRİR

Oktyabrın 25-də Xəzər Universiteti və Estoniyanın Tartu Universiteti arasında siyasi elm və beynəlxalq münasibətlər üzrə təhsil alanlar və akademik heyətin mübadiləsini nizamlamaq üçün universitetlərarası əməkdaşlıq müqaviləsi imzalanmışdır. Müqavilə Erasmus+ proqramının Birinci Əsas Fəaliyyəti kontekstində imzalanmışdır.

KHAZAR UNIVERSITY EXPANDS INTERNATIONAL COOPERATION

On October 25, Khazar University and the University of Tartu in Estonia entered into an interuniversity agreement to facilitate the mobility of learners and staff in political science and international relations. The agreement has been reached in the context of the Erasmus+ programme Key Action 1.

ƏMƏKDAŞIMIZ AMERİKALI TƏLƏBƏLƏRLƏ MƏRDƏKAN DENDRARİSİNDƏ

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin assistenti Günel İsmayılova ingilis dilini inkişaf etdirmək üçün Baku American Center-in kitabxanasına və "English Language Club"-a üzv olmuşdur. "English Language Club"-da ingilis dilini Amerikadan Fulbright proqramı ilə Bakıya gələn əcnəbi müəllimlər tədris edir. G. İsmayılova ingilis dilini öyrənməklə bərabər, əcnəbilərə Azərbaycanın tarixini, mədəniyyətini, incəsənətini də təbliğ edir.

Bu məqsədlə oktyabrın 26-da Fulbright proqramı ilə Bakıya gələn və "English Language Club"-ın üzvləri olan əcnəbi tələbələrin AMEA-nın Mərdəkanda yerləşən Dendralogiya İnstitutununa səfərini təşkil etmişdir. Səfər zamanı ötən əsrdə bir neçə dəfə Bakıda olmuş rus şairi Sergey Yeseninin ev muzeyi, eləcə də, məşhur neft sənayeçisi və xeyriyyəçi, dendralogiya institutunun yerləşdiyi malikanənin keçmiş sahibi Murtuza Muxtarovun ev müzeyi ilə tanış olmuşlar. Dendrarinin əməkdaşları ərazinin tarixi və bitki örtüyü haqqında qonaqlara ətraflı məlumat vermişlər. Səfər əcnəbi tələbələrin xoşuna gəlmiş və öz təəssüratlarını bölüşmüş, bu cür səfərlərin davamlı olmasını istəmişlər.

KHAZAR UNIVERSITY STAFF MEMBER VISITS BOTANICAL GARDEN

On October 23, 2016, Gunel Ismayilova, Assistant of the Department of Azerbaijani Language and Literature, coordinated a trip to the Azerbaijan National Academy of Sciences' Botanical Garden in Mardakan as part of her efforts to promote Azerbaijani history, culture, and arts to foreign citizens living in Baku. She has organized several such excursions for the foreign teachers working at the Baku American Center, where Ismayilova participates in English language classes taught by Americans visiting Baku through the Fulbright Program at the Center's "English Language Club." In addition to learning English at the Center, Ismayilova makes a point to introduce Fulbright scholars and other members of the Club to local attractions and events. During this particular excursion, the group visited the House Museums of Sergey Yesenin (Russian poet who lived in Azerbaijan in the 20th century) and Murtuza Mukhtarov. They also enjoyed the Botanical Garden, where employees told them about local flora and the history of the area. The foreign students in the group shared positive impressions from the day and said they would like to participate in similar events in the future



XƏZƏR UNİVERSİTETİ KARYERA MƏRKƏZİ "LEVELLAND" TƏHSİL İNKİŞAF MƏRKƏZ İLƏ GÖRÜŞ TƏŞKİL ETDİ

Oktyabrın 27-də Xəzər Universiteti Karyera mərkəzi "LevelLand" Təhsil İnkişaf Mərkəzi ilə görüş təşkil etdi. Xəzər Universitetinin tələbə və məzunlarının iştirak etdiyi görüşdə "LevelLand" Təhsil İnkişaf Mərkəzinin direktoru İsgəndər Ağayev mərkəzin fəaliyyəti, eyni zamanda, ABŞ, İngiltərə və digər Avropa ölkələrində təqaüd və staj proqramları barədə məlumat verdi.

Təqdimatda tələbə və məzunlar üçün nəzərdə tutulmuş digər iş imkanlarından da söhbət açıldı. Sonda təlim iştirakçılarının sualları mərkəz rəhbərliyi və nümayəndələri tərəfindən cavablandırıldı.





KHAZAR UNIVERSITY CAREER CENTER HOLDS MEETING WITH LEVELLAND EDUCATIONAL DEVELOPMENT CENTER

On October 27, the Khazar University Career Center held a meeting with LeveLLand Educational Development Center. Khazar students and alumni participated in the meeting, in which Isgandar Aghayev, LevelLand Educational Development Center Director, spoke about the activities of the center as well as scholarship and internship programs in the USA, UK and other countries of Europe.

Students were also given information about other job opportunities. Then a question-and-answer session was held.

XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞININ MƏQALƏSİ TÜRKİYƏDƏ ÇAP OLUNUB

Xəzər Universiteti Azərbaycan dili və ədəbiyyat departamentinin əməkdaşı Elza İsmayılovanın "Koroğlu" dastanının Avropa dillərinə tərcüməsi və yayımı: xarici tədqiqatçıların gözü ilə incələnməsi" (türkcə) adlı məqaləsi Türkiyənin "Akademik bakış" (Sayı/Issue: 57. Eylül-Ekim September–October 2016 ISSN: 1694-528X) – beynəlxalq rəyli sosial elmlər e-jurnalında çap olunmuşdur. Məqalə jurnalın 150-166-cı səhifələrindədir.

"Akademik bakış" jurnalı bir çox beynəlxalq qurumlar tərəfindən izlənilməkdədir.

Məqaləni oxumaq üçün bu linkə daxil olmaq lazımdır:
http://www.akademikbakis.org/jenerik/57.pdf.

POTENSİAL MƏKTƏB DİREKTORLARI LAYİHƏSİ DAVAM EDİR

Xəzər Universitetinin 2014-cü ilin sentyabrından başlayaraq, UNICEF (BMT Uşaq Fondu) və Təhsil Nazirliyinin maliyyə dəstəyi ilə birgə həyata keçirdiyi "Potensial məktəb direktorları" layihəsində təcrübəsini, bu layihə çərçivəsində keçirilən təlimlərin uğurla başa çatmasını, xeyli sayda pedaqoqun sözügedən təlimlərdə iştirakla bağlı çoxsaylı müraciətlərini nəzərə alaraq və Xəzər Universiteti Nizamnaməsinin 1.27 maddəsini rəhbər tutaraq, Potensial məktəb direktorları layihəsini yeni V turda 43 nəfərlə davam etdirir.

Dərslər həftənin üç günü "Neftçilər" kampusunda keçirilir. Artıq 323 nəfəri təlim etmiş proqram davamlı olaraq, İnkişaf proqramı kimi ümumtəhsil müəllimlərinin geniş marağına səbəb olmuşdur.



POTENTIAL SCHOOL DIRECTORS PROJECT CONTINUES



The Potential School Directors project which began at Khazar University in September 2014 with the financial support of UNICEF and the Ministry of Education is back by popular demand, continuing its activities with a fifth iteration of the course including 43 participants. A decision to continue the course was made by taking into consideration the experience of Khazar University in this course, the successful history of the project, and the high number of educators who have completed the course as well as Section 1.27 of Khazar University's Regulations. Classes in the project are held three times a week at Khazar University's Neftchilar Campus. 323 people have already graduated from the course, which is very helpful for participants' development.

MÜƏLLİMİMİZ VARŞAVADA BEYNƏLXALQ PROMETEY KONFRANSINDA İŞTİRAK ETMİŞDİR

Okyabrın 23-dən 28-dək Polşa Respublikasının paytaxtı Varşava şəhərində VII Beynəlxalq Prometey Konfransı keçirilmişdir. Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müəllimi, tarix elmləri doktoru Nəsiman Yaqublu həmin konfransda iştirak etmişdir. Konfransda ABŞ, Polşa, Ukrayna və Qazaxıstandan gəlmiş tanınmış elm xadimləri iştirak edirdilər.

Nəsiman Yaqublu "Qafqaz mühacirlərinin mətbuat orqanları" mövzusunda məruzə ilə çıxış etmişdir. Hazırda həmin məruzə Varşava Universitetində nəşr edilən "Noviy Promete" ("Yeni Prometey") jurnalında çap olunur. Qeyd edək ki, Nəsiman Yaqublu həm də "Noviy Promete" jurnalının redaksiya heyətinin üzvüdür.



NASIMAN YAGUBLU PARTICIPATES IN INTERNATIONAL PROMETHEANISM CONFERENCE IN WARSAW

On October 23-28, 2016, the VII International Prometheanism Conference was held in Warsaw, Poland. Dr. Nasiman Yagublu, instructor for the History and Archeology Department of Khazar University, participated in the conference. Other participants included scholars from the USA, Poland, Ukraine and Kazakhstan. Nasiman Yagublu made a presentation on "Press Organs of the Caucasus Migrants." His paper will be printed in the New Prometheanism Journal (Noviy Promete) published by the University of Warsaw. Nasiman Yagublu is also an editorial board member of the New Prometheanism Journal.

MÜƏLLİMİMİZİN MƏQALƏSİ ÇAP OLUNUB

Xəzər Universitetinin Azərbaycan dili və ədəbiyyat departamentinin müəllimi Qardaşxan Əzizxanlının "XX əsrin ikinci yarısında Azərbaycan vətəndaşlıq lirikasında sosial içərik" adlı məqaləsi AMEA M.Füzuli adına Əlyazmalar İnstitutunun nəşri olan "Filologiya məsələləri" jurnalının 8-ci sayında çap olunmuşdur.

Məqalədə xalqın mənəvi deqradasiyasının qarşısının alınmasında, milli-mənəvi birliyinin qorunub-saxlanmasında, bütövlükdə milli məfkurənin formalaşmasında M.Araz, S.Tahir və M.İsmayılın yaradıcılığının oynadığı məxsusi rola diqqət yönəldilir.

KHAZAR UNIVERSITY INSTRUCTOR'S ARTICLE PUBLISHED

In November 2016, an article entitled "Social Content in Azerbaijani Patriotic Lyrics of the Late 20th Century" by Gardashkhan Azizkhanli, instructor for the Khazar University Department of Azerbaijani Language and Literature, was published in the *Philology Issues* journal (volume 8) published by the Fuzuli Manuscripts Institute of the Azerbaijan Republic Academy of Sciences. The article calls attention to the roles of M. Araz, S. Tahir and M. Ismayil in the formation of national ideology, preservation of national values and prevention of moral degradation.

ƏMƏKDAŞLARIMIZIN TƏDQİQAT İŞİ TÜRKİYƏDƏ BEYNƏLXALQ KONFRANSA QƏBUL EDİLDİ

Humanitar və sosial elmlər fakültəsinin dekan müavini Mələk Kərimova və həmin fakültənin dekan köməkçisi Validə Kərimovanın tədqiqat işi noyabrın 24- 25-də Türkiyədə (Sakarya) keçirilmiş beynəlxalq konfransa (ICQH 2016) qəbul edilmişdir. Konfransda Amerika, Almaniya, Malayziya və s. ölkələrdən tədqiqatçılar öz tədqiqat işləri və məqalələri ilə iştirak etmişlər.

Mələk Kərimova "Azerbaycan öğretmenlerinin gözüyle: sınıf içi olumsuz davranışlar", Validə Kərimova isə "Azərbaycanın təhsil sistemində xarici dil imkanı: özəl ali təhsil müəssisələrində tələbələr arasında ən yaxşı xarici dilin təhlili" ("Possibility of foreign languages in the education system of Azerbaijan: Analysis of the best foreign language among students in higher private educational institutions") adlı tədqiqat işi ilə video prezentasiya ilə çıxış etmişlər.

Konfransın sonunda bütün iştirakçılar "iştirak sertifikatı" ilə təltif edilmişlər. Konfransda nümayiş etdirilən tədqiqat işləri "The Online Journal of Quality in Higher Education" jurnalında (proceeding books) çap edilmişdir (TOJQIH).

UNIVERSITY FACULTY MEMBERS' ARTICLES ACCEPTED TO INTERNATIONAL CONFERENCE IN TURKEY

Articles by Melek Karimova, Assistant Dean of the School of Humanities and Social Sciences, and Valida Karimova, Assistant to the Dean of the School of Humanities and Social Sciences, were accepted to an international conference (ICQH) which was held in Sakarya, Turkey on November 24-25, 2016. Participants in the conference included researchers from America, Germany, Malaysia and other countries.

Melek Karimova presented her article on "Misbehavior in the classroom: Perspectives of Azerbaijani teachers," and Valida Karimova presented her article on "Possibility of foreign languages in the education system of Azerbaijan: Analysis of the best foreign language among students in higher private educational institutions," at the conference remotely via video presentations.

At the end of the conference, all participants were given certificates. Their articles were also accepted for publication in the Online Journal of Quality in Higher Education by December 30.



VASKO PRATOLİNİ

VANDA

Hekayə

Vasko Pratolini 1913-cü il oktyabrın 19-da İtaliyanın Florensiya şəhərində yoxsul ailədə anadan olmuşdur. Yeniyetməlik və gənclik illərində özü müstəqil surətdə təhsilə yiyələnmiş və ən müxtəlif işlərdə çalışmışdır. 1937-ci ildə "Solariya" jurnalı ətrafında toplaşaraq dərnək qurmuş intellektuallarla, o cümlədən Elio Vittorini, sonra isə Alfonso Qatto ilə tanış olmuş və 1938-39-cu illərdə onlarla birlikdə "Campo di Marte" ("Mars meydanı") jurnalını nəşr etmişdir.

Sonrakı illərdə Romada təhsil nazirliyində işləmiş, "Ronda" jurnalı ilə əməkdaşlıq edən yazıçılarla yaxınlıq etmişdir.

Pratolini həmin dövrdən ədəbi fəaliyyətə başlayaraq, müharibədən sonrakı İtaliya ədəbiyyatında neorealizmin görkəmli nümayəndəsi kimi formalaşmışdır. O, mədəniyyət və xüsusilə radio, kino sahələrində geniş fəaliyyət göstərmişdir. Pratolini Müqavimət hərəkatının da fəal iştirakçısı olmuşdur.

İtaliya və bir çox xarici ölkələrin beynəlxalq mükafatlarına layiq görülmüş Pratolini 1991-ci il yanvarın 12-də Romada vəfat etmişdir.

Vandanın işıldayan qara gözləri və sarı saçları var idi. Heç cür ona sevgimi etiraf edə bilmirdim. Axı hələ adının Vanda olduğundan belə xəbərim yox idi. Lakin bir səhər o özü körpünün ortasında dayandı və mən yaxınlaşmaq üçün cəsarətimi toplayana qədər gözlədi.

– Qulaq asın, – dedi, – Bu ki, əsl müəmmadır. Bir aydır ki, arxamca kölgə kimi gəzirsiniz. Deyin görüm sizə nə lazımdır? Bu əziyyət də bitsin.

– Məgər hələ də başa düşməmisiniz? – qışqırdım.

Bu vaxt yanımızdan bir qadın keçdi. Əlindən tutduğu qızcığaz dərslərini yüksək səslə təkrarlayırdı. Balaca hələ yarıyuxulu idi və dili dolaşa-dolaşa deyirdi:

– Sən ol, Siz olun, biz olaq, sən ol…

İkimiz də güldük, bu, utancaqlığın öhdəsindən gəlməyə kömək etdi.

Vanda məhəccərə dirsəkləndi, mən də elə etdim və çaya tamaşa etməyə başladıq. Arnonun yaşıl suları yüksəlmişdi, az qala körpüdəki zərgərlik dükanlarının pəncərələrinə çatırdı.

Mən çayın ortasını işarət etdim:

–Qayıqdakına baxın.

Mənə elə gəldi ki, bu, indi ona deyə biləcəyim ən vacib şeydir.

O cavab verdi:

–Baxan kimi görünür ki, işi-gücü yoxdur. Ona paxıllığım tutur.

Körpünün hər iki ucunda Dörd fəsilə həsr olunmuş heykəllər ucalırdı.

İkimizin də on səkkiz yaşı var idi. Mən qəzetdə işləyirdim. Vanda isə geyim mağazasında satıcı işləyir və gündəlik yeddi lira qazanırdı. O, atası və nənəsi ilə yaşayırdı, atası məhkəmədə məmur idi və əlində veksellər ev-ev gəzirdi.

Düz bir il hər gün burada, Ponte Vekkyoda görüşdük. Vanda çayın o tayında, Bahar və Yay heykəllərinin baxdığı tərəfdə qalırdı. Barda hərəyə bir fincan qəhvə içirdik və orada satılan təzə brioşlardan birini alıb yarı bölürdük. Vanda öz payını qəhvəyə batırıb kiçik loxmalarla yeyirdi. O, biroşu dişləməmişdən əvvəl qəhvəsini sorurdu. Məni isə öz payımı bütöv udduğuma görə danlayırdı.

Vandanı dükana qədər yola salır və orada bir qədər ləngiyirdim. O isə mənə bir dəfə də gülümsəmək üçün vitrini yığışdırmağa başlayırdı. Günorta və axşamlar yenə körpüdə gəzişirdik.

Günlər bir-birini əvəzləyir, növbə ilə gözümüzün qarşısında axan çayda əksini tapırdı. Çay yanvarda, daşqın vaxtı sapsarı və bulanıq olur, sel altında qalmış talalardan ağac budaqları və cəmdək yığıb gətirirdi. Belə günlərdə zərgərlər emalatxanalarının pəncərələrinə yaxınlaşır və suölçənə baxırdılar. Qızmar yay günlərində çayda qumdan adalar peyda olur, bənd quruyurdu və balacalar bütün günü orada oynaşırdılar. Yalnız körpünün altı ilə güclə sezilən şəffaf su axırdı. Yazda isə su yaşıl olurdu, axşamları biz körpünün üstündəayaq saxlayırdıq və Vanda məhəccərə dirsəklənib əlləri ilə çənəsini tutur, çaya baxa-baxa oxuyurdu.

–Sevgilim, –onu sığallayıb əzizləyirdim, amma Vanda məni dinləmirdi.

–Sən çayı məndən çox istəyirsən, –zarafatla deyirdim.

–Dəli, –gülüb cavab verərdi.

Sonra yay gəldi və körpünün üstündə adamlar yığışmağa başladılar. Səs-küy sala-sala gəzənlər, mandolin çalanlar… Körpünün altında isə qarpız satırdılar.

Min doqquz yüz otuz səkkizinci il idi. İspan respublikaçıları Bruneteni itirmişdilər. Hansısa ər öz arvadını öldürmüşdü və İtaliya hökuməti irqi ayrı-seçkilik barədə qanunu təsdiqləmişdi. Lakin bütün bu hadisələr bizə o qədər uzaq idi ki!Adi qəzet başlığından başqa bir şey deyildi. Vanda ilə mən yalnız körpüdə keçirdiyimiz saatlara, bulvar gəzintilərinə əhəmiyyət verirdik. Bir də mənimlə tanış olmaqdan imtina edən atası var idi.

– Onu razı sala biləcəyəm, görərsən, – deyirdi Vanda, – Əslində onun bir etirazı yoxdu, amma biz hələ yetkinlik yaşına çatmamışıq.

Vanda hər gün yavaş-yavaş qadına çevrilirdi. Boyu da uzanmışdı. Biz öpüşməyi öyrənəndən isə daha çox dəyişmişdi. Lakin əvvəlki narahatlığı, hətta ən əhəmiyyətsiz şeylər barədə tələşlə sual vermək xasiyyəti hələ də qalmışdı. Sanki vaxtaşırı güclənən

və böyüyən kabusun içində yaşayırdı.

– Çox müəmmalıdır, – ilk görüşümüzdəki kimi təkrarlayırdı, – Niyə fənərləri belə gec yandırırlar? Sən niyə məhz bu gün saçını kəsdirmisən? Niyə neçə gündü ki, səmada bütöv ay görünür?

Mən evlənəcəyimizi və bir yerdə yaşayacağımızı xəyal edirdim. Bir də oyuncaq kimi qəşəng, detektorlu radiomuz olacaqdı. İyunda Vandaya al-qırmızı yaylıq bağışlamışdım. O, soyuq axşamlarda hədiyyəmi ağ paltarının üstündən boynuna dolayırdı.

– Mən aşiq olmaq istəmirdim. Elə birinci gün sənə demişdim ki, məndən əl çəkəsən, – deyirdi.

– Bilirəm, – deyirdim gülə-gülə, – Öz sirrini mənə nə vaxt açacaqsan? Sənə elə gəlmir ki, mən səni artıq kifayət qədər çox sevirəm və məni heç nə ilə qorxuda bilməzsən.

– Hələ yox, – o, mənə ciddi-ciddi baxdı, mən isə onu öpdüm.

getdikcə daha solğun, dalğın və narahat olurdu.

– Ev işləri səni çox yorur, – deyirdim, – Belə olmaz.

Bir axşam dedi:

– Əgər məni belə sevirsənsə, niyə qəlbimin daha da dərinliklərinə baxmağa çalışmırsan? Mən sirrimi açmaq üçün bunu gözləyirəm.

– Mən sənin haqqında hər şeyi bilirəm, sən nəfəs aldığım hava kimisən. Səni açıq kitab kimi yaxşı tanıyıram, – cavab verdim.

– Eh, axmaq, – dedi və onun səsində həm sevgi, həm kədər hiss olunurdu. Sonralar bu səsi tez-tez yada salacaqdım.

Biz məhəccərə söykənib çaya tamaşa edirdik. Külək əsirdi və park dumana bürünmüşdü. Dumandan heç fənərlər də görünmürdü. Çay tağların altından gələn canlı qara kütləyə bənzəyirdi, körpünün sütunlarına çırpılan suyun fasiləsiz səs-küyü eşidilirdi.

Vanda dedi:

– Bu, əsl müəmmadır. Sən daima deyirsən ki, bilirəm, bilirəm. Heç nə də bilmirsən. Niyə mən sarışınam? Mən sarışın olmamalıyam. Bunu bilirsən?

– Sən sarışın olduğun üçün sarışınsan, – dedim.

– Mənim belə açıq rəngli saçlarım olmamalıdır. Çox müəmmalıdır. Mən səni sevirəm. Niyə səni sevirəm? Əlbəttə, sən bilirsən. İzah elə görüm. Niyə? Mən bilmirəm. Bircə onu bilirəm ki, sevirəm. Niyəsini isə başa düşə bilmirəm.

Qəribə olsa da, bu dəfə sakit idi, təkcə sözləri həyəcanlı idi.

– Əlbəttə, sən hər şeyi bilirsən, – deyirdi, – Çayın dənizə axdığını da bilirsən. Ancaq mənim heç vaxt dəniz görmədiyimdən xəbərin yoxdur. Bəli, bəli, iyirmi yaşım var, amma heç vaxt dəniz görməmişəm, heç qatarla səyahət də etməmişəm. Bunu bilirdin?

– Ay dəli, – dedim, – Sirr dediyin elə bu idi?

O, məhəccərə söykənib dedi:

– İndi də düşünürsən ki, sirrim budur. Dəhşətsən.

Mən Vandanın çiyinlərini qucaqladım və üzünü özümə çevirib ağladığını gördüm. Barmağımla bir göz yaşı damlasını sildim və dodaqlarını yaş elədim.

– Dadına bax, – dedim, – dəniz də belə duzludur.

Və onun yanağından öpdüm.

– Bazar günü dənizə gedəcəyik. Qatarla gedərik. Axşama qayıdarıq. Atana da bir bəhanə fikirləşərsən.

– Lazım deyil, – o, çaya baxıb cavab verdi, – Atam gedib və tez qayıtmayacaq.

– Qohumlarının yanına gedib?

– Hə, – dedi.

Vandanı evə yola salanda körpüdən düşüb heykəllərə baxdı və dedi:

– İlin günün bu vaxtı Baharın burada nə işi var? Bilirsən?

O, məni öpməmişdən nəvazişlə sinəmdən itələdi, lakin gözləri dolmuşdu. Göz yaşlarını dəsmalla sildim.

Həmin gecə anam otağıma girib məni oyatdı.

– Gəldim pəncərəni yoxlayam, – dedi, – Səsi eşidirsən?

Şiddətli yağış yağırdı və iri damlalar pəncərə şüşələrini döyəcləyirdi.

Anam gedəndə dedi:

– Sabah çay qalxacaq.

Səhər parlaq günəş çıxdı, küçələr və evlərin fasadları fırtınadan sonra gələn təravətli hava axını ilə təmizlənmişdi. Çayın suyu zərgərlik dükanlarının pəncərələrinə qədər qalxmışdı, pəncərələrin dəmirləri sona qədər endirilmişdi.

Vandanı gözləyirdim, amma o gəlmədi. Bazarı gəzdim, yenə də ona rast gəlmədim. Onda fikirləşdim ki, axşam bir az sərin idi, bəlkə də soyuqlayıb. Evinə getmək qərarına gəldim.

Qapını döydüm. Qapını orta yaşlı arıq qadın açdı. Gözündə eynək, əynində rəngi solmuş mavi xalat var idi, əski ilə əlindəki qabı silirdi.

– Vanda evdə deyil, – bir qədər kobud və əsəbi dilləndi, – Görünür səhər tezdən gedib. Sanitar da iki dəfə gəlmişdi, amma qız ortalıqda yoxdu.

– Sanitar niyə? – soruşdum.

– Atasının güclü tutması olmuşdu, deyəsən, bu dəfə…

Hələ də qapının kandarında dayanmışdım. Özümü lap itirmişdim, bircə bu sualı verə bildim:

– Atası xəstə idi ki?

Qadın soruşdu:

– Siz polis deyilsiniz?

– Yox, – dedim, – Dostuyam.

– Ah, üzr istəyirəm, demək olar ki, hər gün gəlirlər. Axı Vandanın atası üç ay əvvəl yəhudi olduğuna görə işdən qovulandan sonra dəli olmuşdu. Kədərdən ağlını itirmişdi.

– Bəs Vanda? – soruşdum.

– Heç bilmirəm ki, hara gedə bilər, – qadın cavab verdi, – Bəlkə kimdənsə borc istəməyə çıxıb. Başa düşürsüz, biz ona əlimizdən gəldiyi qədər kömək edirik, axı indi o da işsizdi. Amma bilirsiz, biz özümüz də cah-cəlal içində yaşamırıq.

İki gün sonra uzaqda, mənsəbə yaxın çay Vandanın bədənini sahilə atdı.

Tərcümə etdi: **İlahə Əkbər**



WORLD'S MOST VISITED TOURIST ATTRACTIONS

Hand-painted ceramics, lanterns, intricately patterned carpets, copperware, gold Byzantine-style jewelry, and more eye-catching products vie for your attention within this 15th-century bazaar's vaulted walkways. It has since expanded and become increasingly touristy, but locals, too, are among the millions of bargain hunters. To haggle like a pro, lowball your starting offer and don't be afraid to walk away. And if it all gets overwhelming, break for a succulent doner kebab or strong cup of Turkish coffee.

GRAND BAZAAR

ANNUAL VISITORS:


91,250,000





Formally known as the Plaza de la Constitución, the enormous Zócalo thrums with activity. It hosts military parades, cultural and political events, concerts, exhibitions, fairs, and public art installations. Metropolitan Cathedral and the National Palace flank this historic public square, and an imposing Mexican flag, raised and lowered daily, waves over the scene.

Source: Mexico Tourism Board ©Konstantin Kalishko / Alamy



Tourists flock to New York's neon heart for the flashing lights, Broadway shows, megastores, and sheer spectacle—including costumed characters eager to pose for photo ops. Pedestrian-only areas with café tables introduced a few years ago have made it easier and more appealing to hang out here. Times Square can even be a convenient, if chaotic, base, thanks to hotels at every price point and easy access to public transportation: subways, rails, buses, and more yellow taxis than you can count.

Central Park, New York City



New York has larger green spaces, but none is more famous than Central Park, which stretches across nearly 850 acres of prime Manhattan real estate—an oasis for both tourists and locals. You can ride in one of the horse-drawn carriages, check out the modest-size zoo, climb to the top of 19th-century Belvedere Castle, or take a break from pounding the pavement to sprawl on the Great Lawn, gazing at the skyscrapers above.

Union Station, Washington, D.C.



Opened in 1907, this busy station shuttles some 12,500 passengers daily in and out of the city. But it also handles millions of tourists who pass through to take in the impeccably mixed architectural styles throughout the colossal building: from Classical to Beaux-Arts to Baroque. More than 70 retail outlets make Union Station a shopping destination, and it's also a jumping-off point for many D.C. tours.

http://www.travelandleisure.com/slideshows/worlds-most-visited-tourist-attractions/



DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.



MÜQƏDDƏS QALL MONASTIRININ KİTABXANASI

İsveçrənin ən qədim kitabxanasıdır. Əsası VIII əsrdə qoyulmuşdur. 1983-cü ildə kitabxana monastırla birlikdə UNESCO-nun Ümumdünya irs siyahısına daxil edilmişdir. Kitabxananın fondunda 160 min nüsxədən çox kitab vardır. VIII-IV əsrlərə aid qədim əlyazmaları (manuskript) ilə zəngindir. Kiriş üçün açıq olaraq fəaliyyət göstərir.

XƏZƏR UNİVERSİTETİ

"DÜNYA" MƏKTƏBİ SUMQAYITDA



- Xəzər Universitetinin Sumqayıtda yeni fəaliyyətə başlayan Dünya Məktəbi şagird qəbulu elan edir:
- Məktəbəqədər hazırlıq (5-6 yaş) - Azərbaycan, rus, ingilis dillərində
- Tədris bütün siniflər üzrə - Azərbaycan, rus dillərində
- İB Proqramları üzrə təhsil ingilis dilində
- İB diplomu əldə edən məzunlar dünyanın tanınmış universitetlərində birbaşa bakalavr təhsili almaq imkanı əldə edirlər.
- Məktəbdə Amerika universitetlərinə qəbul imkanı verən SAT kursları və SAT test mərkəzi fəaliyyət göstərir.
- Qəbul imtahanlarında yüksək nəticə göstərən şagirdlər güzəştli ödənişlə təhsil almaq hüququ qazanırlar.
- Keyfiyyətli təhsil almaq üçün zəngin kitabxana,müasir avadanlıqlarla təchiz olunmuş sinif otaqları və laboratoriyalar mövcuddur.
- Şagirdlərin hərtərəfli inkişafını təmin edən idman, rəqs, dram, musiqi və müxtəlif dərnəklər
- Şagirdlər sağlam qidalanır, məktəbə rahat və təhlükəsiz gediş-gəliş üçün avtobus xidməti ilə təmin edilirlər.



Ünvan: Sumqayıt şəhəri,
44-cü məhəllə, Bakı kücəsi

Tel.: (+994 18) 642 30 97
Mob.: (+994 55) 669 96 33
(+994 50) 669 86 33

E-mail: info@dunyaschool.az
www.dunyaschool.az



Valideynlərin və şagirdlərin nəzərinə!

Xəzər Universitetinin Dünya məktəbi 2016-2017-ci tədris ilində I-XI siniflərə şagird qəbulu elan edir:

Qəbul müsabiqə yolu ilə həyata keçirilir.

Təhsil 3 dildə (Azərbaycan, rus, ingilis) aparılır.

Azərbaycan və rus bölmələrində ingilis dili ikinci dil kimi tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman, çin dilləri də öyrədilir.

Məktəbdə təcrübəli pedaqoqlar, o cümlədən xaricdən dəvət edilmiş mütəxəssislər çalışırlar. Burada savadla yanaşı, tərbiyə də mühüm yer tutur.

Dünya məktəbi beynəlxalq statuslu məktəbdir. O, Beynəlxalq Bakalavr Təşkilatının (International Baccalaureate Orqanization – IBO) üzvüdür. Məktəbdə IB Diplom Proqramı fəaliyyət göstərir.

Dünya məktəbi

X sinif şagirdləri tam orta təhsillə yanaşı, öz istəkləri ilə Beynəlxalq Bakalavr Təşkilatının Diplom Proqramında təhsil ala bilərlər. Digər məktəblərin şagirdləri də imtahan verməklə Diplom Proqramına qəbul edilirlər.

Diplom proqramında təlim ingilis dilindədir. Təhsil müddəti iki ildir.

Beynəlxalq Bakalavr Diplomu əldə edən şagirdlər dünyanın tanınmış universitetlərində təhsillərini davam etdirmək imkanı qazanırlar.

Məktəbəqədər hazırlıq

2016-2017–ci il üçün hazırlığa uşaq qəbulu davam edir.

Hazırlıqda 4-5, 5-6 yaşlı uşaqlar üçün Azərbaycan, ingilis və rus dillərində qruplar təşkil olunub. Bütün qruplarda əlavə iki dil (Azərbaycan, ingilis, rus) tədris edilir.

Gündəlik dərs proqramından əlavə, Şahmat, Kompüter, Psixologiya, Rəsm-əmək, Rəqs, Dram və Musiqi dərsləri keçirilir.

Ünvan: Bakı, Əcəmi Naxçıvani 9

Dünya məktəbi
Tel.: (+99412) 563 59 40 /47/48
Mob.: (+99470) 844 08 88
E-mail: info@dunyaschool.az

Məktəbəqədər hazırlıq
Tel.: (+99412) 563 59 43/ 45
Mob.: (+99470) 560 15 18
E-mail: bagca@dunyaschool.az

http: //dunyaschool.az



Universitetdə bakalavr pilləsində aşağıdakı ixtisaslar üzrə kadr hazırlığı aparılır:

I qrup üzrə:

- Kompüter elmləri
- Neft-qaz mühəndisliyi
- Kompüter mühəndisliyi
- İnşaat mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi

II qrup üzrə:

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Tarix müəllimliyi
- Coğrafiya müəllimliyi
- Regionşünaslıq (regionlar üzrə)
- Beynəlxalq münasibətlər
- Turizm və otelçilik

III qrup üzrə:

- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- Xarici dil (ingilis dili) müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Filologiya (İngilis dili və ədəbiyyatı)
- Filologiya (Azərbaycan dili və ədəbiyyatı)
- Politologiya
- Tərcümə (ingilis dili və digər dillər)
- Dizayn

IV qrup üzrə:

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Psixologiya
- Kimya və biologiya müəllimliyi

Universitetdə kadr hazırlığı aparılan bütün ixtisaslarda ödənişsiz və ya dövlət hesabına təhsil almaq mümkündür.

Ünvan: Məhəti küçəsi, 41
Əlaqə telefonları: (012) 421-68-11, (012) 417-91-33,
Faks: (012) 498-93-79
E'mail: contact@khazar.org
http://www.khazar.org

XƏZƏR UNİVERSİTETİ

Xaricdə ən çox tanınan, xaricə ən çox tələbə göndərən, xaricdən oxumağa tələbələrin ən çox gəldiyi, xarici müəllimlərin ən çox işlədiyi ali məktəbdir.

Xəzər Universiteti öz tədris proqramlarının müasirliyi, verdiyi təhsilin keyfiyyəti və ciddiliyi, geniş beynəlxalq əlaqələri ilə həm Azərbaycanda, həm də onun hüdudlarından çox-çox uzaqlarda geniş hörmət və nüfuz qazanmışdır.

Xəzər Universiteti dünyada ali məktəblərin reytinqinin müəyyənləşdirilməsi sahəsində nüfuzlu təşkilatların reytinq cədvəlində Azərbaycan ali məktəbləri arasında həmişə birinci olmuşdur.

2016-cı il iyunun 14-də QS (World University Rankings) təşkilatı inkişaf etməkdə olan Avropa və Mərkəzi Asiya ölkələri universitetlərinin reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti Azərbaycanın ən yaxşı ali məktəbi seçilməklə yanaşı, göstərilən bölgənin ilk 70 ali təhsil müəssisəsi arasında yer almış yeganə Azərbaycan universitetidir.

2016-cı il sentyabrın 6-da QS (World University Rankings) təşkilatı dünya üzrə ali təhsil müəssisələrinin 2016-2017-ci il üçün reytinqini müəyyənləşdirmişdir. Xəzər Universiteti dünya universitetləri sırasında 701+ yeri, Azərbaycan universitetləri arasında isə 1-ci yeri tutmuşdur.

Universitetin maddi-texniki bazası

Məhsəti küçəsi, 41 ünvanda yerləşən müasir avadanlıqlarla təchiz edilmiş tədris korpusunda (Neftçilər metrosunun yaxınlığında), şəhərin mərkəzində Bəşir Səfəroğlu küçəsi, 122 ünvanda yerləşən tədris binasında və 8-ci MKR, Əcəmi Naxçıvani küçəsi, 9 ünvanda (Ayna Sultanovanın heykəlinin yaxınlığında) 3 bina və ayrıca idman kompleksindən ibarət tədris kampusunda yüksək keyfiyyətli təhsil almaq üçün hər cür şərait yaradılmışdır.

Təhsil və karyera imkanları

Təhsildə fərqlənən tələbələr təhsillərini Amerika, Kanada, İngiltərə, Fransa, Almaniya, Hollandiya, İsveç, İtaliya, Türkiyə, Çin, Yaponiya və s. ölkələrin tanınmış universitetlərində davam etdirmək imkanı qazanırlar.

Xəzər Universitetində əsas təhsil dili ingilis dilidir. Bu, tələbələrin müasir dərsliklərdən istifadə etməsi, təhsillərini xaricdə davam etdirməsi və xaricdən gələn müəllimlərin effektli dərs deməsinə geniş imkan verir. Məzunlar və yuxarı kurs tələbələri xarici şirkətlərdə yüksək maaşlı işlərə dəvət alırlar, eləcə də dövlət təşkilatlarında və ölkəmizin qabaqcıl şirkətlərində işləmək imkanı əldə edirlər.

Təhsil haqqının ödənilməsində güzəştlər

Dövlət İmtahan Mərkəzinin keçirdiyi imtahanlarda yüksək bal toplayan tələbələrə aşağıdakı qaydada güzəştlər edilir. İmtahanlarda:
650-700 bal toplayan tələbələr təhsil haqqından tam azad edilir.
600-649 bal toplayan tələbələr təhsil haqqının cəmi 25%-ni ödəyir.
550-599 bal toplayan tələbələr təhsil haqqının 50%-ni ödəyir.
450-549 bal toplayan tələbələr təhsil haqqının 75%-ni ödəyir.

Tələbələr təhsil aldıqları müddətdə əsgəri xidmətdən azaddırlar.